

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**8 Noyabr - böyük Zəfər günü!**



4

# Beynəlxalq tədbirlər məkanında COP29




2

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar*

SƏS

№ 204 (7129)

5 noyabr 2024-cü il.
Qiymət 60 qəpik

# Ağ Evə gedən uzun yol



4

**Naxçıvanın Şahbuzu: 4 fəsil gəl, gör...**




8

**Azad torpaqların iqtisadiyyatı nə vəd edir?**



12

**Okeandan gələn təhlükə: sunami**



15

**Bakıda dəhşətli qətl: Anasının boynunu sındıraraq öldürdü**



16

**Tik tok ailə dəyərlərimizə "od qoyur"...**



7

# Beynəlxalq tədbirlər məkanında COP29







***Güclü və qüdrətli Azərbaycan beynəlxalq tədbirlərin mərkəzinə, qlobal layihələrin təşkilatçısına çevrilib. Ölkəmizdə dünyanı daim narahat edən problemlərlə əlaqədar beynəlxalq konfransların, tədbirlərin təşkil edilməsi, mədəniyyətlərarası siyasi dialoqları ehtiva edən, iqtisadi əməkdaşlığa əsaslanan forumların təşkili Azərbaycanın xarici aləmdəki mövcud nüfuzunun, gücünün göstəricisidir.***

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar*







Məhz belə beynəlxalq tədbirlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitəçilik edirlər. Xüsusən də iqtisadi cəhətdən bu tədbirlərin təşkili çox faydalıdır.Çünki ölkəmizə gələn hər bir qonaq respublikamızda yatırımlar üçün əlverişli şəraitin və imkanların olmasını, eyni zamanda sabitliyin hökm sürdüyünün şahidinə çevrilirlər. Artıq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a Azərbaycanın ev sahibliyi etməsinə saylı günlər qalıb. Azərbaycanda hazırlıq işləri geniş vüsət alıb. Ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır. Hazırlıq işləri çərçivəsində tamamlanma işləri gedir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva COP29-un keçiriləcəyi tarixlərdə tədbir məkanı ərazisində istifadə ediləcək yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün nəzərdə tutulan elektrikli minimobillər, Sammit zamanı yüksəksəviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün istifadə olunacaq qolfmobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələrinə baxıblar.

Dövlətimizin başçısı və birinci xanım COP29-un rəsmi Mavi Zonasında açılış mərasimində Milli bəyanatların səsləndiriləcəyi "Nizami" Plenar İclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqları ilə tanış olublar. Qeyd edilib ki, burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər var. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına yaxın günlərdə təhvil veriləcək Mavi Zonada hazırda COP29 çərçivəsində pre-sessiya görüşləri keçirilir.

Dövlətimizin başçısı və birinci xanım akkreditasiya və qeydiyyat prosesləri ilə tanış olublar. Bu günədək konfransda qeydiyyatdan keçmiş nümayəndə heyətləri ilə bağlı ətraflı məlumat verilib, tədbirə böyük marağın olduğu bildirilib.

Digər ölkələrin və tərəflərin pavilyonlarının yerləşdiyi zonaya baxan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada Azərbaycan və digər ölkə pavilyonlarının tikinti prosesləri ilə tanış olub, müxtəlif maraqlı tərəflərin iştirakı ilə geniş iştirakçı auditoriyası, eləcə də ictimaiyyət üçün açıq platforma rolunu oynayacaq Yaşıl Zonada olublar, Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə pavilyonu olan Həmrəylik Mərkəzi, həmçinin digər tərəfdaşların və ölkələrin sərgi stendlərinə baxıblar. Yaşıl Zonanın ümumi konsepti, bu zonada keçiriləcək yüksəksəviyyəli konfrans və tədbirlər barədə ətraflı məlumat verilib.

### PLANETİN ƏN ÇOX AZARKEŞ TUTUMUNA MALİK 50 ARENASI SIRASINDA

Bildiymiz kimi, dövlətimizin başçısı bir neçə gün bundan əvvəl də bu məkanda olmuş, ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış olmuşdur. Dövlətimizin başçısı Media Mərkəzinə də baxmışdı. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılır. Konfransın işıqlandırılması üçün ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib.

Qeyd edək ki, Bakı Olimpiya Stadionu da planetin ən çox azarkeş tutumuna malik 50 arenası sırasına düşüb. Tutumu 69 min 870 nəfər göstərilən BOS dünyada 45-ci nəhəng stadiondur. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionunda ilk Avropa Oyunları keçirilib.

Bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər diqqətdə saxlanılıb. 8 hektar ərazidə Yaşıl Zona qurulub. Qeyd edək ki, Bakı Olimpiya Stadionu Azərbaycandakı ən böyük stadiondur. 2015-də baş tutan Bakı-2015 1-ci Avropa Oyunlarının əsas idman məkanı kimi istifadə edilmişdir və eyni tədbirin açılış və bağlanış mərasimlərinə və atletika idman növünə ev sahibliyi etmişdir. Məkan Azərbaycan Futbol Komandasının oyunlarına və konsertlərə ev sahibliyi edir. AVRO-2020 Avropa Çempionatının qrup və final mərhələsinə ev sahibliyi edib. 2019-cu ildə burada UEFA Avropa Liqasının finalı keçirilib. Bakı Olimpiya Stadionu aralarında "Allianz Arena", "Aviva Stadium", "Nou Kamp" və "Santyaqo Bernabeu" kimi dünyaca məşhur stadionlar olan UEFA-nın Elit Stadionları siyahısına daxil edilib.

### COP29-A HAZIRLIĞIN SON MƏRHƏLƏSİ

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "COP29-a hazırlıq işləri artıq son mərhələdədir. Ölkəmizdə bu işlərə bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəmir". Dövlətimizin başçısı COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkənin yekdil dəstəyini yüksək qiymətləndirərək bu cür tədbirin regionda birinci dəfə ölkəmizdə təşkil edilməsinin böyük önəm daşıdığını bildirib.

*Ardı Səh. 3*

# Beynəlxalq tədbirlər məkanında COP29

Əvvəli-Səh-2

Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğuru kimi, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi edəcəkdir. Beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan COP29-un təşkili baxımından üzərinə düşən vəzifəni layiqincə yermək məqsədi ilə tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin 2024-cü ili ”Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərin önündə olmasına sadiqliyini nümayiş etdirən strateji addımdır. COP29-a hazırlıqla bağlı isə Prezidentin müvafiq sərəncamı ilə Təşkilat Komitəsi yaradıldı. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi təkcə beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının göstəricisi deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli işlərin aparılması üçün əlverişli fürsət və böyük məsuliyyətdir. COP29-a hazırlıq sürətlə aparılır. Ölkəmizdə hazırlıqla bağlı həyata keçirilən tədbirlər sırasında müxtəlif təşkilatlar tərəfindən təşkil olunan təlimlər də xüsusi rol oynayır.








## COP - İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏDƏ DÜNYANIN ƏN ƏHƏMİYYƏTLİ TƏDBİRLƏRİNDƏN BİRİ

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir. ”Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, - deyə Prezident İlham Əliyev çıxışlarının birində vurğulamışdır. Azərbaycan yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Rəsmi mənbələrin məlumatına istinadən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş




”Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri ”təmiz ətraf mühit” və ”yaşıl artım”la bağlıdır. Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir və yaşıl enerjiyə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir, iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir.

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilib. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bildirək ki. SOP28 ötən il Dubayda keçirildi, bu il isə dünyanın gözü COP29-a ev sahibliyi edəcək Bakıda olacaqdır. Bütün dünya ölkələrinin dövlət rəhbərləri bir araya gəlib iqlim dəyişikliyi ilə bağlı məhz Bakıda həll yolları axtaracaqlar. Bu ölkəmiz üçün, onun enerjisi, geosiyasəti üçün son dərəcə vacib bir toplantı kimi əhəmiyyət daşıyacaqdır. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanırdı. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı prioritet sahə kimi qəbul etdiyini bütün dünyaya sübut edəcək. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə təqdiminə böyük təkan verəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Azərbaycan möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər günü ərəfəsindədir. Məğrur, qalib Azərbaycan xalqı Zəfər tarixinin dördüncü ildönümünü qeyd edəcəkdir. Azərbaycan Prezidentinin Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz Qələbənin əbədiləşdirilməsi məqsədilə noyabrın 8-i ölkəmizdə Zəfər Günü elan edilməsi Azərbaycan xalqının ən qürurlu, ən fəxarətli tarixinə çevrilib.***



# 8 Noyabr - böyük Zəfər günü!



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik qabiliyyəti və Ordumuzun rəşadəti sayəsində bu gün qalib ölkənin vətəndaşları kimi Zəfər Gününü böyük təntənə ilə qeyd edirlər. Xalqımız Vətən müharibəsində 44 gün ərizində qələbələr qazanaraq, Zəfərə doğru addımladı və tarixi qələbəni əbədiləşdirdi. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə silinməz bir gün yazdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dörd il əvvəl noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibə verərkən Ona ünvanlanan "Hazırda Dağlıq Qarabağdakı müharibənin altıncı həftəsi başlayır. Cəbhədə hazırda vəziyyət necədir?" sualını cavablandıraraq belə demişdir: "Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən dəmək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".

## "ERMƏNİSTAN ARTIQ BİZİM TƏRƏFİMİZDƏN AZAD EDİLMİŞ ƏRAZİLƏRİ GERİ ALMAĞA CƏHD GÖSTƏRİRDİ"

Müharibənin gedişində məğlubiyyəti ilə barışmayan ermənilər dinc insanlara qarşı terror törədirdilər. Bərdədə, Gəncədə yaşanılanlar hər kəsin yaddaşındadır. Humanitar atəşkəs elan olunsa da 2020-ci ilin noyabrın 5-i saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhəri, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tuturdu., Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülürdü.

Cənab Prezident müsahibəsində bildirdiyi kimi, bu atəşkəslərin işləməməsinin səbəblərindən biri ondan ibarət idi ki, Ermənistan artıq bizim tərəfimizdən azad edilmiş əraziləri geri almağa cəhd göstərirdi: "Başqa sözlə, onları yenidən işğal etmək istədilər. Ona görə də onlar sizin doğru olaraq qeyd etdiyiniz kimi, humanitar məqsədlərlə elan olunmuş bu atəşkəsdən resursları səfərbər etmək və yeni hücuma keçmək üçün istifadə etmək istədilər. Onlar bunu edə bilməyəndə, Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlə hücum etdilər. Onlar bunu iki dəfə etdilər. Lakin birinci dəfə oktyabrın 10-da, atəşkəs elan olunandan dərhal sonra etdilər və bunun nəticəsində 10 mülki şəxs həlak oldu, onlarla adam yaralandı. Beləliklə, onlar birinci atəşkəsi kobud şəkildə pozdular". İkinci atəşkəs də elan olunan vaxtdan təxminən 5 dəqiqə sonra ermənilər tərəfindən bu pozuldu. Növbəti atəşkəsdə isə Bərdəyə hücum etməklə pozdular. 21 nəfər mülki şəxs qətlə yetirildi, 70 nəfər isə yaralandı. "Beləliklə, hər 3 dəfə bu, Ermənistanın bizə qarşı məqsədli şəkildə təcavüzkar hücumu idi və biz cavab verməli və özümüzü müdafiə etməli olduq", - deyə Prezident bildirmişdi.

Azərbaycan Ordusu 2020-ci ilin sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifini darmadağın etdi. Azərbaycan beynəlxalq hüquq prinsiplərini rəhbər tutaraq uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirərək,dünyanı təəccübləndirən müharibədə 30 illik işğala son qoymuş oldu.

## "ÜÇTƏRƏFLİ BƏYANAT MƏSƏLƏNİN HƏLLİ İSTİQAMƏTİNDƏ SON NÖQTƏ OLACAQDIR"

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti Azərbaycan tarixində yeni səhifəyə çevrildi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Cənab Prezidentin bu ifadələri xalqın tarixinə həkk olundu. Bu Qələbəni, Zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, rəşadətli əsgər və zabitlərimiz oldu.

Bildiyimiz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi ATƏT çərçivəsində başlamışdır. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atdı. Bu münaqişənin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirildi. İllərlə davam edən danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. "Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb", - deyə Azərbaycan Prezidenti bildirib.

## BÜTÖV VƏ SUVEREN AZƏRBAYCAN İNKİŞAF YOLUNDA

Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğuru kimi tarixdə yer aldı. Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə edildi. Vətən müharibəsindəki Zəfərin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz suverenliyini tam bərpa etdi. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir.

30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız, Şərqi Zəngəzurumuz müasir dünyanın ahəngində qurulur, yeni həyat, nəfəs verilir. Əsrlərin yaddaşında özünə yuva qurmuş əzəli torpaqlarımız tarixi, daşı, qayası, mədəniyyət abidələri, dini ocaqları hər zaman möhtəşəmliyi ilə diqqətdə olmuş və qürurla səhifələdiyimiz daş abidələrdə öz əksini tapmışdır. Bu gün Zəfər qazanan BÜTÖV və SUVEREN AZƏRBAYCAN tarixin dönəmində inkişaf yolu keçmiş qeyd etdiyimiz məkanlarda böyük quruculuq-abadlıq işlərinə başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə səfərləri və burada görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, burada görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Böyük Qayıdışın yüksək səviyyədə reallaşmasına xidmət edən addımların miqyasının genişliyi diqqətdən kənarda qalmır. Qarabağın tacı Şuşada, Ağdamda, Laçında və digər ərazilərdə aparılan bərpa-quruculuq işlərinin vüsəti artır. Verilən göstərişlər vaxtında və yüksək səviyyədə yerinə yetirilir.

***Zümrüd BAYRAMOVA***

# Ağ Evə gedən uzun yol








## ABŞ-da prezident, senatorlar və konqresmenlər necə seçilir?

***ABŞ-da prezident seçkiləri noyabrın 5-də keçiriləcək və demokrat Kamala Harris Respublikaçı Donald Trampla qarşılaşacaq. Ekspertlər və sosioloqlar Amerika cəmiyyətində görünməmiş parçalanmadan, hər iki seçki qərargahının nümayəndələri həmvətənlərinin nəinki ölkənin, bütün dünyanın gələcəyinin asılı olduğu taleyüklü seçimindən danışırlar. Eyni zamanda, Ağ Ev uğrunda döyüşün fonunda Senatda və Nümayəndələr Palatasında yerlər uğrunda mübarizə kölgədə qalıb. ABŞ-ın daxili və xarici siyasətinin vektoru növbəti dörd il ərzində Oval Ofisə kimin rəhbərlik edəcəyindən asılıdır. 2024-cü il seçkilərindən nələrin gözləndiyini, eləcə də indiki yarışın ötən illərin qarşıdurmalarından nə ilə fərqləndiyini anlamaq üçün dünyada cərəyan edən hadisələrə və ABŞ-da baş verən hadisələrə baxmaq və müqayisə etmək kifayətdir.***

Noyabrın 5-i bütün dünyada maraqla gözlənilən bir hadisə baş verəcək. Siyasətçilər və ekspertlər əmindirlər ki, təkcə Amerikanın deyil, bütün planetin gələcəyi məhz bu gün müəyyənləşəcək. Lakin reallıqda seçki günü seçki yarışının yalnız bir mərhələsidir, amma hər şeyin sonu deyil. ABŞ-da prezident seçkiləri bir neçə ay davam edən uzun prosesdir. Ağ Evin rəhbəri olmaq üçün prezidentliyə namizəd 538 üzvdən ibarət xüsusi orqan olan Seçicilər Kollegiyasında 270 və ya daha çox səs toplamalıdır. Bununla belə, "dolayı seçkilər" termini çaşqınlıq yarada bilər. ABŞ vətəndaşlarının prosesdə iştirak etmələrinə baxmayaraq, dünyanın hər yerində onların prosesdən kənarda qaldıqları təəssüratı yarana bilər. Əslində, prezident seçkiləri yanvarın sonu - fevralın əvvəlində Demokratlar və Respublikaçılar partiyalarının praymerizinin başlaması ilə başlayır. Bu müddət ərzində və iyun ayına qədər Oval kabinetə daxil olmaq istədiklərini bəyan edən siyasətçilər namizəd olduqları siyasi qüvvənin tərəfdarları arasında simpatiya üçün partiya yoldaşları ilə yarışa qatılırlar. Belə ki, amerikalılar partiyadaxili seçkilərdə ştatdan-ştata səs verməklə ölkənin iki əsas partiyasından yekun namizədlərin müəyyən edilməsi prosesində birbaşa iştirak edirlər.

Lakin bu, həmişə belə deyildi. 20-ci əsrin əvvəllərinə qədər respublikaçıları və demokratları seçkilərdə kimin təmsil edəcəyi ilə bağlı qərar əslində partiya elitası tərəfindən verilirdi və namizədlərin adlarının rəsmi təsdiq edildiyi milli qurultaylar çox vaxt eyni gücü təmsil edən rəqiblər arasında siyasi döyüşlərə çevrilirdi. Seçicilərin iki böyük partiyadan Ağ Evə namizədlər seçməsi praktikası nəhayət, yalnız ötən əsrin ikinci yarısında, 1970-ci ildə demək olar ki, bütün ştatlarda praymerizlər təşkil etməyə başlayanda formalaşıb.

İlkin seçkilər hazırkı prezidentin artıq iki müddətə xidmət etdiyi və buna görə də artıq namizəd olmaq hüququna malik olmadığı illərdə ən gərgin dövrünü yaşayır. Belə bir şəraitdə onlarla siyasətçi, məsələn, 2016-cı ildə olduğu kimi, öz partiyalarının tərəfdarlarının səsləri uğrunda qızğın döyüşə başlayaraq, prezidentlik ambisiyalarını bəyan edirlər. Digər illərdə ən çox maraq müxalifət qüvvələrinin praymerizindədir: onun müxtəlif nümayəndələri seçiciləri inandırmağa çalışırlar ki, onlar hazırkı dövlət başçısını Ağ Evi tərk etməyə məcbur edə bilərlər.

2024-cü ildə seçicilər erkən səsvermədə görünməmiş aktivlik nümayiş etdiriblər. Koronavirus pandemiyasının bütün dünyada tüğyan etdiyi və buna görə də ABŞ-da 101,4 milyon insanın əvvəlcədən səs verdiyi 2020-ci ildən başqa, cari dövrə Seçki gününə qədər atılan bülletenlərin sayına görə rekord olacaq. Mümkündür ki, amerikalılar hətta son seçkilərin nəticələrini də üstələyə bilsinlər, baxmayaraq ki, bu, əlbəttə ki, böyük səy tələb edəcək. Noyabrın 1-i səhər saatlarına olan məlumata görə, 66 milyondan çox insan artıq öz seçimini edib ki, onlardan 53%-i şəxsən, 47%-i isə poçt vasitəsilə bunu edib. Bu, ABŞ-da 2020-ci ildə əldə edilən göstəricidən çoxdur. Yarışın nəticəsinin əslində asılı olduğu belə ştatların sakinləri arasında səsvermə istəyinin artması qərargahın və ekspertlərin diqqətini cəlb edib və bunda bəzi əlamətlər tapmağa çalışıblar.

538 üzvdən ibarət olan Seçicilər Kollegiyası prezidentliyə namizədlərin səslərini toplayır. Konstitusiyaya görə, 50 ştatın hər birinə ABŞ Konqresinin hər iki palatasındakı təmsilçiliyinə uyğun olaraq müəyyən sayda seçiciyə zəmanət verilir. Nümayəndələr Palatasının üzvlərinin sayı ştatın əhalisinin sıxlığından asılıdır, Senatda isə ştatlar bərabərləşdirilib, hər kəsə iki yer verilib. Kaliforniya və Alyaska ştatlarının sakinləri artıq qərar veriblər. Qırx səkkiz ştat və Kolumbiya dairəsi qalib, bir ştatın bütün seçki səslərini qazanmaq üçün namizəd xalqın səsini qazanmalıdır. Problem ondadır ki, əksər ştatlarda səsvermənin nəticəsini əvvəlcədən proqnozlaşdırmaq olar, çünki onlar ildən-ilə eyni partiyadan olan namizədləri dəstəkləyirlər. Bununla belə, həmişə Ağ Evə iddialıların tez-tez bir neçə faiz bəndi uğrunda mübarizə apardığı bir qrup ştat var və intriqa son ana qədər davam edir. 2024-cü ildə bu ştatlara Viskonsin, Miçiqan, Pensilvaniya, Corciya, Şimali Karolina, Arizona və Nevada daxildir.

Bu və ya digər şəkildə ABŞ-da prezident seçkilərinin, əslində, səsvermə gününün başa çatması ilə bitməməsinin səbəbi belə mürəkkəb sistemdir. Bütün səslər hesablandıqdan sonra cədvəl formalaşdırılır və oradan hansı namizədin ən çox seçici səsini aldığı aydın olur. Ancaq Seçicilər Kollegiyası səs vermək üçün təxminən ay yarımdan sonra toplanır. 2024-cü ildə tədbir dekabrın 17-nə planlaşdırılıb.

Qeyd edək ki, seçicilər öz ştatlarının seçicilərinin iradəsinə uyğun olaraq səs vermək üçün heç bir ciddi öhdəlik daşımırlar. Səhv namizədi dəstəkləyən "vicdansız seçicilərin" üzləşdiyi maksimum cəza 1 min dollardır, lakin Seçicilər Kollegiyasının seçicilərin qərarına qarşı çıxma ehtimalı olduqca aşağıdır. İlk növbədə ona görə ki, bu cür davranış cəmiyyət tərəfindən pislənir. Birləşmiş Ştatların bütün tarixində "səhv" namizədə səs verən yüz əllidən bir qədər çox seçici olub. Məsələn, 2016-cı ildə Donald Tramp Hillari Klintonu məğlub edəndə belə adamların sayı on nəfərə çatmışdı. Lakin "vicdansız seçicilər" heç vaxt yekun nəticəyə təsir göstərməyib.

Bu arada Seçicilər Kollegiyası da ABŞ-da prezident seçkilərinə son qoymur. Yanvarın əvvəlində - 6-da Konqresin hər iki palatasının yarışın nəticələrinin təsdiqləndiyi iclasın keçirilməsi planlaşdırılır. Və yalnız yanvarın 20-də ABŞ-da yeni prezidentin və vitse-prezidentin andiçmə mərasimi keçirilir. Beləliklə, ABŞ-da prezident seçkiləri tam bir il davam edən bir prosesdir.

ANALİTİK

*Ardı Səh. 6*

# Ağ Evə gedən uzun yol








Əvvəli-Səh-5

### Milyonlar səs verir, amma yüzlərlə insan qərar verir

Seçicilər Kollegiyasının səsverməsi və nəticələrin Konqres tərəfindən təsdiqlənməsi kimi mərhələlər formallığa çevrilib. Bəzən Birləşmiş Ştatlar elə təlatümlü kampaniyalardan keçir ki, seçkinin qalibi məsələsi seçki günündən sonra noyabrın ilk çərşənbə axşamından əvvəlkindən az aktual olmur. Tipik olaraq, ilk problemlər bülletenlərin emalı mərhələsində başlayır. Bəzi mütəhərrik ştatlarında zaman-zaman yarış o qədər qızğın olur ki, sözün əsl mənasında bir neçə yüz səs prezidentliyin taleyini həll edə bilər. Bu, 2000-ci ildə Bill Klintonun vitse-prezidenti, demokrat Albert Qor respublikaçı Corc Buşa qarşı döyüşəndə baş verdi. Milli miqyasda keçirilən səsvermənin nəticələrinə görə, Qor Buşdan yarım milyon səs çox toplayaraq qələbəsini qeyd etdi. Bununla belə, potensial seçicilər baxımından rəqiblər arasında paritet var idi və buna görə də bütün diqqət Floridaya yönəldi, burada səslər hesablandıqdan sonra rəqiblər arasında fərq Respublikaçının lehinə cəmi 1784 bülleten təşkil edirdi (təxminən 6 seçki bülleteni).

Albert Qor bu vəziyyətlə razılaşmadı və əyalət səlahiyyətliləri belə kiçik bir boşluq olduğu halda qanunun tələb etdiyi kimi yenidən saymağa başladılar. İlk təkrar hesablamadan sonra Corc Buşun üstünlüyü təxminən 900 bülletenə qədər azaldı. Bu vəziyyətdə Demokratlar məğlubiyyəti etiraf etməkdən imtina etdilər və buna görə də Florida özünü yenidən saymaların və çoxsaylı məhkəmələrin burulğanında tapdı, sözün əsl mənasında bütün ölkə bunu seyr edirdi. Növbəti turda respublikaçıların üstünlüyü 327 səsə endirildi. Qarşıdurmaya yalnız dekabrın 12-də ABŞ Ali Məhkəməsi 5 hakimin dördə qarşı səs verməsi ilə, səslərin təkrar hesablanmasının dayandırılması və Corc Buşun qələbəsinin qeydə alınması barədə qərar qəbul etməklə sona çatdı. Beləliklə, 2000-ci ildə prezidentliyin taleyi sözün əsl mənasında 537 amerikalının səsi ilə həll olundu. Məhz bu fərqlə Respublikaçı Floridada rəsmi olaraq demokratı üstələdi.

Belə bir vəziyyətdə Qorun müqaviməti ən azı ritorika səviyyəsində davam etdirmək üçün bütün əsasları var idi, lakin dekabrın 13-də Demokratlar məğlubiyyətini etiraf etməli oldu. Təsadüfi deyil ki, “Amerika partiyadan üstündür” deyilir. Maraqlıdır ki, 2001-ci il yanvarın 6-da Konqres tərəfindən seçkilərin təsdiqi zamanı Nümayəndələr Palatasının iyirmi üzvü Floridada səsvermənin nəticələri ilə razılaşmayaraq protokolları təsdiqləməkdən imtina etmişdi, lakin Qor iclasa rəhbərlik etdiyi üçün rəqibinin qələbəsinə şübhə yaradan bütün etirazları rədd etdi.

2020-ci ildə Donald Tramp ikinci müddətə namizədliyini irəli sürərkən, tarix yenidən təkrarlandı. Seçkilər koronavirus pandemiyası dövründə keçirildiyi üçün seçicilərin böyük bir hissəsi poçt vasitəsilə səs vermək fürsətindən istifadə etdilər. Poçt bülletenlərinin sayılması adi bülletenlərin sayılmasından daha uzun çəkdi, bu da medianın Pensilvaniya ştatının ənənəvi ştatında qalib elan etməsinə səbəb oldu. Nəticədə demokrat Co Bayden 4 il əvvəl qələbəsini qeyd etdi. Bununla belə, cənab Tramp məğlubiyyətini etiraf etməkdən imtina etdi və “oğurlanmış seçki” iddiasına başladı. Respublikaçının hələ də bunda israrlı olması diqqət çəkir. Ümumiyyətlə, prezident seçkilərinin seçki günü bitməməsinin ən parlaq nümunəsi məhz Donald Trampın hekayəsidir.

Lakin həmin il ən böyük qalmaqal Pensilvaniyada deyil, Demokratların Respublikaçılardan üstünlüyü 13,5 min səs olan Corciyada baş verdi. Bu vəziyyətdə ştatın rəhbəri Bred Raffensperger səslərin əl ilə yenidən sayılmasını əmr etdi - və nəticədə cənab Baydenin üstünlüyü 12,2 min bülletenə düşdü. Məsələ bununla da bitmədi, səslərin təkrar hesablanması davam etdi və Demokratın qələbəsi yalnız dekabrın 7-də 11 min 779 səs üstünlüyü ilə təsdiqləndi. Lakin bu, Donald Trampı dayandırmadı, o, Raffenspergerə zəng edərək, onun lehinə “11 min 780 səs tapmağı” tələb etdi və vəzifəli şəxsi bu tələbləri yerinə yetirmədiyi təqdirdə hüquqi nəticələrlə hədələdi və sonda Tramp üçün hələ tamamlanmamış federal cinayət işi ilə nəticələndi.

2020-ci il seçkilərinin kulminasiya nöqtəsi 6 yanvar 2021-ci ildə Donald Trampın qəzəblənmiş tərəfdarlarının mitinqdən sonra Konqresə hücum oldu. Tramp öz vitse-prezidenti Mayk Pensdən protokolları təsdiq etməyi tələb edib və bununla da Co Baydenin qələbəsinin yekun təsdiqinə mane olub. Pens seçkilərin nəticələrinin təsdiqində onun rolunun təntənəli olduğunu və buna görə də yarışın nəticəsini ləğv etmək hüququna malik olmadığını əsas gətirərək, rəhbərinə tabe olmaqdan imtina edib. O vaxtdan bəri keçmiş partnyorlar düşmənə çevriliblər və keçmiş vitse-prezident son dərəcə mühafizəkar fikirli adam olmasına baxmayaraq, dəfələrlə bəyan edib ki, Donald Tramp Amerikanı heç vaxt idarə etməməlidir. Bununla belə, o, heç vaxt açıq şəkildə Co Baydeni və sonra Kamala Harrisi dəstəkləməyib.

### Qızlar solda, oğlanlar sağda

2020-ci ilin qaynar kampaniyası, yumşaq desək, indiki dövrü narahatlıqla izləyən amerikalıların şüurunda dərin izlər buraxıb. Scripps News/Ipsos-un son sorğusuna görə, amerikalıların 62%-i ölkənin seçki günündən sonra zorakılıq dalğası yaşayacağına inanır. Eyni zamanda, demokratların 70%-i, respublikaçıların isə 59%-i bu fikirdədir. Belə bir şəraitdə amerikalıların 51%-i hətta seçkidən sonra baş verə biləcək iğtişaşların qarşısını almaq üçün ordudan istifadəni dəstəkləyir. Eyni zamanda, sorğuya əsasən, amerikalılar özlərini zorakılıq uçurumunda tapmaq istəmirlər. ABŞ vətəndaşlarının dörddə üçü namizədi məğlub olsa belə, seçkinin nəticələrini qəbul etməyə hazır olduqlarını bildirib. Demokratların 85%-i, respublikaçıların 77%-i buna hazır olduqlarını bildirirlər.

### Bayden Trampa “zibil”lə necə kömək etdi?

Hər iki partiyanın nümayəndələri Konqresdəki iğtişaşlardan qorxurlar. Demokratlar narahatdırlar ki, uduzsalar Donald Tramp yenidən seçkiləri “oğurlanmış” adlandıracaq və dörd il əvvəl etdiyi kimi, kütləni ehtiyatsız hərəkət etməyə ruhlandıracaq. Respublikaçılar qeyd edirlər ki, zorakılıq Donald Tramp qalib gələrsə, onun ikinci müddətinin qaçılmazlığını qəbul edə bilməyən solçu seçicilərdən gələ bilər. Trampın seçki kampaniyası zamanı iki dəfə sui-qəsd cəhdinə məruz qaldığını və nəticədə o, az qala qulağını itirəcəyini nəzərə alsaq, onların da demokratlar kimi qorxuları əsassız deyil.

Artıq xüsusi xidmət orqanları baş verəcək iğtişaşlara ciddi şəkildə hazırlaşırlar, Polis bu yaxınlarda üç vertolyotun Kapitoliyə eniş etdiyi “zərərçəkənlərin təxliyəsi” təlimi keçirib. Hüquq-mühafizə orqanlarının əməkdaşlarının belə tədbirlər görməyə hər cür əsası var. Həm də təkcə Donald Trampın yenidən seçkiyə qatılması deyil, Qorun dediyi kimi: “Amerika partiyadan üstündür” fikrini əsas götürərək hazırlıqlarını davam etdirirlər. Həm də problem ondadır ki, Amerika cəmiyyəti görünməmiş qütbləşmə vəziyyətindədir. XIX əsrin ortalarında vətəndaş müharibəsindən sonra nəhayət Demokratlar və Respublikaçılar partiyalarının sanki növbəli şəkildə idarə etdiyi ABŞ demokratik dövlətdir. Digər tərəfdən, ekspertlər qeyd edirlər ki, müasir Amerikanın əsas problemi cəmiyyətin özünün parçalanması deyil, qütbləşmədir. Hər iki partiyanın ifratları son onilliklərdə güclənib və bu, bir vaxtlar kənar və radikal hesab edilən ideyaların siyasi spektrin hər iki tərəfində əsas cərəyana daxil olmasına səbəb olub. Nəticədə mərkəzçi nüvə nəzərəçarpacaq dərəcədə daralıb, radikal sol və sağ isə əksinə, qanadlarını açıb.

2024-cü il kampaniyasının bir xüsusiyyəti də gender məsələsidir. USA TODAY/Suffolk Universitetində seçkidən bir müddət əvvəl keçirilən sorğuya görə, Kamala Harris seçki gününə on gün qalmış qadınlar arasında dəstək baxımından Donald Trampdan üstün olub – 53%-36%. Öz növbəsində, Respublikaçı amerikalı kişilər arasında demək olar ki, eyni liderliklə öyünə bilər: 53% - 37%. Belə ki, səsvermənin nəticələrinə əsasən belə bir boşluq sonda qeydə alınarsa, bu, 1980-ci ildən bu cür statistika aparılmağa başlandıqdan sonra rekorda çevriləcək. Müqayisə üçün qeyd edək ki, 2020-ci ildə Co Baydeni qadınların 57%-i, Donald Trampı isə 42%-i dəstəkləyib. Lakin Respublikaçı kişilər arasında keçirilən sorğura Tramp demokratların namizədini üstələyib: 53%-45%.

Ekspertlərin fikrincə, 2024-cü ildə gender fərqinin genişlənməsi bir neçə amillə bağlıdır. Birincisi, ABŞ prezidenti postunu tutan ilk qadın ola biləcək Kamala Harrisin fiquru rol oynayır. Bu perspektiv, təbii ki, bir çox amerikalı qadının demokratlara səs vermək istəyini artırır. İkincisi, abort məsələsi cinsi üstünlüklərə böyük təsir göstərir ki, bu da 2022-ci ildə Ali Məhkəmənin hamiləliyin dayandırılması üzrə federal hüququnun ləğvi barədə qərarından sonra Amerika cəmiyyəti üçün əsas məsələlərdən birinə çevrilib. Nəzərə alsaq ki, ştatların təxminən yarısında abort respublikaçıların səyləri ilə faktiki olaraq qadağan edilib (və bu, bir neçə dəfə insan faciələrinə gətirib çıxarıb), qadınların bu sahədə hər hansı məhdudiyyətin aradan qaldırılmasının tərəfdarı olan xanım Harrisə dəstək olmaq istəyi başa düşüləndir.

Bu və ya digər şəkildə Kamala Harris və Donald Tramp arasındakı yarış cəmiyyət üçün nəinki gərgin, həm də son dərəcə gərgin keçib. Buna görə də noyabrın 6-da səhər ABŞ-ın prezidentlik yarışının sona çatmasından hələ çox uzaqda olacağı ehtimalı çox yüksəkdir.

### Avropalılar nə düşünür?

Avropa ölkələri ABŞ prezidentliyinə namizəd Donald Trampın seçkilərdə qalib gələcəyi təqdirdə ABŞ-la “mümkün transatlantik münasibətləri kəsməyə” hazırlaşır. Eyni zamanda, “The Washington Post”a müsahibə verən siyasətçilər qeyd edirlər ki, Amerika prezidenti postunu kimin tutmasından asılı olmayaraq Avropada gərginlik gözlənilir. Ən böyük narahatlıq Trampın yüksək idxal rüsumlarının tətbiqi vədidir. “Trampı sakitləşdirmək” üçün Avropa cavab həlləri siyahılarını tərtib etməyə və danışıqlar strategiyasını müəyyən etməyə başlayıb. Eyni zamanda, Almaniya iqtisadiyyatının tarif artımlarına ən həssas olduğu bildirilir.

“Trampla ticarət müharibəsi perspektivi tənəzzül qorxusunu artırır. Alman İqtisadiyyat İnstitutu xəbərdarlıq edib ki, Trampın tarifləri alman şirkətləri üçün 162 milyard dollar itkiyə səbəb ola bilər. Avropanı narahat edən digər mövzu Donald Trampın NATO və Ukrayna münaqişəsi ilə bağlı mövqeyidir. Eks-prezident hərbi bloka daxil olan ölkələri müdafiəyə kifayət qədər vəsait ayırmadıqlarına görə tənqid edib. O, seçkidə qalib gəlsə, Ukraynanı ərazisini verməyə məcbur etmək və Rusiya ilə sülh sazişi ilə razılaşmaq niyyətindədir. Vaşinqtonun mövqeyinin dəyişməsindən sığortalanmaq üçün NATO Kiyevə yardım göstərməklə bağlı ABŞ-ın bəzi öhdəliklərini öz üzərinə götürüb və Avropa ölkələri xərclərini artırıblar. Bununla belə, Avropa rəsmiləri etiraf edirlər ki, ABŞ-ın dəstəyini itirmək “dağıdıcı zərbə” olacaq.

ABŞ-da seçkilər çərşənbə axşamı, noyabrın 5-də keçiriləcək. Artıq 70 milyondan çox amerikalı prezident seçkilərində erkən səs verib. Son sorğulara görə, Respublikaçılar Partiyasının namizədi demokrat rəqibi Kamala Harrisi qabaqlamağa başlayıb.

**V.VƏLİYEV**

# Qız Qalası əsrlərin yaddaşında



***Tarixi abidələr daş yaddaşimıza çevrilib və hər bir xalqın kimliyini, keçdiyi tarixi yolu xatırladır. Ölkəmizdə yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələrin mövcudluğu fikrimizi tamamlayir. Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Tarixin müxtəlif dövrlərində ölkəmizin ərazisində dövlətlərin yaranması ilə qədim şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa olunub.***

Orta əsrlərə aid abidələr Qız Qalası, Möminə Xatun, Qarabağlar, Gülüstan, Allah-Allah türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib. Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub. Azərbaycan Prezidenti İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Xalqımızın yaratdığı mədəni irs nümunələrinin dünyada tanıdılması istiqamətində də uğurlara imza atılıb. İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub.

### ŞƏHƏRSALMA SƏNƏTİNİN ƏZƏMƏTLİ TƏZAHÜRÜ

Ölkəmizin paytaxtı Bakı şəhərindəki qədim memarlıq abidələri isə mədəniyyətimizin və tariximizin rəmzlərinə çevrilmişdir. Xalqımızın milli sərvəti olan İçərişəhər Azərbaycanda hələ yüzillər bundan əvvəlki şəhərsalma sənətinin əzəmətli təzahürüdür. Burada ucaldılmış Qız qalası, qala divarları və Şirvanşahlar sarayı kompleksinin şöhrəti dünyaya yayılmışdır. Orta əsrlər şəhər mədəniyyətinin təcəssümü kimi kompleksə daxil olan məscidlər, karvansara, zorxana, bazar meydanı və digər tikililər mühəndismemarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğurur. Bu gün onlardan biri haqqında yazacağıq – tarixi əsrlərə söykənən Qız Qalası.

Bakı Qız Qalası Xəzər dənizinin kənarında dənizə doğru maeli nəhəng bir qayanın üzərində, silindirik formada tikilmişdir. Qalanın hündürlüyü şimal tərəfdən 31, cənub tərəfdən isə 28 metrdir. Qalanın diametri birinci mərtəbədə 16,5 metrdir. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Daşla hörülmüş həmin tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir. Xəzər dənizi ilə üzbəüz, Qədim Bakının ön kənarında, paytaxtımızın rəmzi olan bu sirli tarixi memarlıq abidəsi şəhərimizə gələn hər bir kəsin diqqətində olur. Tarixi memarlıq abidəsi olan Qız Qalası ilə bağlı əsrlər boyu dolaşan əfsanələr, sirli məqamlar onun möcüzəvi dünyası ilə tanışlığa sövq edir insanları. Tarixi mənbələrdə bildirilir ki, Qız qalasının indiki adı nisbətən yenidir. Bəzi sənədlərə əsaslanaraq söyləmək olar ki, XIX əsrə qədər bu tikili "Xunsar" adlanıb. Yəqin ki, bu adın mənşəyi yunanların sitayiş etdiyi Asaru və romalıların Osiris adlandırdığı tanrının adından törəyib. Qız qalasının ətrafında dolaşan çoxsaylı əfsanələr onun adını daha çox romantik hekayətlərlə bağlayır. Qız qalasının yaranması haqqında xeyli rəvayət və uydurmaların olması istisna deyil. Onların əksəriyyəti "qız" sözü ilə əlaqədardır.

### İLK YERALTI YOL

Bakı Qız Qalasının tikinti quruluşunda maraqlı cəhətlərdən biri də Qalanın içərisində qayadan ovulub düzəldilmiş su quyusudur. Diametri 0,7 m. olan bu quyu Qalanın cənubşərq divarının içindədir. Su quyusunda qazıntı işləri aparılmışdır. Quyudan tapılan maddi-mədəniyyət qalıqları buradan XII əsrdən başlayaraq istifadə olunduğunu göstərir. Hesablamalar nəticəsində məlum olmuşdur ki, quyunun dəniz suyu səviyyəsi ilə heç bir əlaqəsi yoxdur. Quyunun suyu kimyəvi analiz olunmuş, onun içmək üçün tam yararlı olması müəyyənləşdirilmişdir. Quyunun ağız hissəsi Qalanın üçüncü mərtəbəsinin döşəməsi səviyyəsindən başlayıb divar boyu aşağıya doğru 13 metr davam edir. Quyunun təhlükəsizliyini təmin etmək üçün onu Qala divarı içərisində gizlətmişlər. Onun şimal və cənub divarında enib qalxmaq üçün 10-12 sm. dərinlikdə ayaq yerləri vardır. Quyunun 12 metr dərinliyində divar genişlənir.

Qız Qalası və Şirvanşahlar Sarayı arasında gizli yeraltı yolun məhz su quyusunun aşağı hissəsindən başlanması ehtimal olunur. 1982-ci ildə İçərişəhərin şərq tərəfində aparılan geniş miqyaslı arxeoloji qazıntılar nəticəsində aşkar edilən ilk yeraltı yol orta əsrlərdə Bakının mərkəzi ticarət küçəsi sayılan Şamaxı Qala qapısından başlayıb Salyan darvazasına doğru gedən baş küçənin şərq tərəfində şimal-cənub istiqamətində yerləşir. Maraqlıdır ki, yolun xətti XIV əsrdə tikilmiş "Multan"ı karvansarayının altından keçərək Qız Qalasına doğru gedir.

İçərişəhərdə arxeoloji qazıntılar davam edir. Çox güman ki, axtarışlar zamanı əldə edilən maddi-mədəniyyət nümunələri Qız Qalasının tarixi keçmişinə dair dəqiq fikirlər söyləməyə imkan verəcəkdir.

Tarixin daş yaddaşı olan abidələrimiz əsrlərdən bizə soraq verir. Hər tarixi abidə zənginliyimizi, kimliyimizi dünyaya, şəhərimizə gələn qonaqlara təqdim edir.

***Zümrüd BAYRAMOVA***



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

## Tik tok ailə dəyərlərimizə "od qoyur"...

*Əsas məqsədləri yeniyetmə və gəncləri azərbaycançılıq dəyərlərindən uzaqlaşdırıb məhv etməkdir*

Artıq son bir neçə ildir ki, sosial şəbəkə seqmentində mənəvi dəyərlərimizin açıq şəkildə, biləbilə məhv edilməsi, xüsusilə yeniyetmə və gənclərin milli dəyərlərimizə daban-dabana zidd olan proseslərə alət edilməsi barədə haqlı etirazlar durmadan artır. Nəzarətsiz poliqona çevrilmiş sosial şəbəkələr bu gün milli dəyərlərimiz üçün bir nömrəli təhlükə kimi baş qaldırıb. Nəzarətsiz və təhlükəli xarakter alan sosial şəbəkə platforması elə təhlükəli həddə çatıb ki, artıq məsələ milli təhlükəsizlik problemi həddinə çatıb. Bu, artıq milli genefonumuzun məhv edilməsi ilə müqayisə olunacaq vəziyyətdir.Xüsusilə Tik tok platformasında milli dəyərlərimizin tam əksinə olaraq yeniyetmə və gənclərimizin cinsi azlıqlara alışdırılması, əxlaq yoxsulu olan şəxslərin bilərəkdən "məşhurlaşdırılması" kimi təhlükəli siyasət aparılır. Bu sosial platformada "məşhurlaşan" cinsi azlıqların maddi imkanları gözə soxulur, onlara "hədiyyə" edilən maşın, mənzil və digər bahalı əşyalar gənclərin diqqətini cəlb etmək üçün xüsusi video çarxlarla reklam olunur. Bununla da yeniyetmə və gənclərin bu tiplərə pərəstiş etmələri və "rahat həyat yolunu" seçmələri üçün iyrənc siyasət həyata keçirilir. Açıq şəkildə sosial şəbəkələr vasitəsilə milli-mənəvi dəyərlərimiz mənəvi terrora məruz qalır. Əsas məqsədləri yeniyetmə və gəncləri azərbaycançılıq dəyərlərindən uzaqlaşdırıb məhv etməkdir. Təəssüf ki, cəmiyyətin ziyalı qismi nədənsə bu barədə ancaq susmağa üstünlük verir.

### "Artıq məsələ milli təhlükəsizlik problemi həddinə çatıb"

Bu azmış kimi, azərbaycançılıq dəyərləri, xüsusilə min illərdir bizimlə yol gələn ailə institutumuz da bu gün hədəf halındadır. Ailə dəyərlərimizi gözdən salmaq, milli kimliyimizin əsas göstəricisi sayılan adət və ənənələrimizi "köhnəlmiş" adı ilə yaddaşlardan silmək üçün, əsasən də gənclərin şüurunu zəhərləmək üçün sosial şəbəkələr durmadan çalışırlar. Artıq dünyanın ən inkişaf etmiş ölkələrində tik tok sosial şəbəkəsi ilə bağlı ciddi məhdudlaşdırıcı qərarlar qəbul olunur. Son olaraq ABŞ, Böyük Britaniya, Finlandiya kimi qabaqcıl Qərb ölkələri bu sosial şəbəkə seqmentinin yeniyetmə və gənclər üçün ciddi təhlükə mənbəyinə çevrildiyini əsas gətirirək tik toku öz ölkələrində məhdudlaşdırır, ya da yeniyetmələrin bu sosial şəbəkədən istifadəsinə qadağalar qoyurlar. Amma min dəfə təəssüf olsun ki, bu sosial şəbəkələr Azərbaycanda "at oynadır", yeniyetmə və gənclərin beynini zəhərləməkdə davam edirlər.

Artıq bu nəzarətsiz poliqon o həddə həyasızlaşıb ki, ciddi medianın yerinə keçməyə belə həvəslənib. İndi bir çoxları sosial şəbəkə dedi-qodularını "sosial media" kimi cəmiyyətə sırımağa çalışırlar. Əslində, peşəkar mətbuatın xəbərçilik və informasiya sürətində "axsaması" da bu qüvvələrin əlinə əlavə bəhanələr verir. Düzdür, ciddi media xəbər ardıcıllığı və informasiya çevikliyində gecikir, bu, etiraf olunası haldır. Amma bir fakt da real həqiqətdir ki, sosial şəbəkələri "sosial media" kimi tanıtmağa və qəbul etdirməyə çalışanlar da bədniyyətli qüvvələrdir. Axı vaxtilə iki nəfərin bir-biri ilə, yaxud qrup halında məktublaşması jurnalistika sayılmadığı kimi, indiki halda, sosial şəbəkədəki şəxsi yazışma, xəbərləşmə də media sayıla bilməz. Hər iki fəaliyyətin ortaq tərəfi informasiya yayımıdır. Peşəkar media yaydığı informasiyaya görə cəmiyyət qarşısında əxlaqi və hüquqi məsuliyyət daşısa da, sosial şəbəkələr, hələlik, bu tələblərə məhəl qoymur. Bütün bunlara görə sosial şəbəkə cəmiyyətin "dördüncü hakimiyyət" statusunu etibar etdiyi mötəbər yayım vasitəsi - media sayıla bilməz. Görünür, bu fikri ictimai rəyə sırımaqla həm də peşəkar medianı daha da hörmətdən salmağa çalışırlar. Açıq qeyd edirəm ki, yaxın bir zamanda Azərbaycanda sosial şəbəkə seqmentinin fəaliyyətini nizamlayan məhdudlaşdırıcı qanun qəbul edilməsə, vəziyyət arzuolunmaz və dəhşətli həddə çatacaq.




# Naxçıvanın Şahbuzu: 4 fəsil gəl, gör...

***Naxçıvanın təbiət gözəli olan Şahbuz bütün fəsillərdə füsunkar görünüşü, bənzərsiz havası ilə turistləri cəlb edən bölgədir. Yazı bir başqa mənzərə, qışı möcüzə, yayı çiçək ətirli, payızı bol meyvəli olan rayonun müstəqillik illərində daha da gözəlləşən, müasirləşən hüsnü buranı əsl turizm məkanına çevirib. Rayonda 140-a yaxın tarix-mədəniyyət abidəsinin qeydiyyata alınması, onlardan 6-nın dünya əhəmiyyətli olması turistlərin diqqətini çəkən məqamlardandır. Rayonun coğrafi mövqeyi isə burada ekoturizm, kənd yaşıl, müalicə, qış və digər turizm növlərinin inkişafına böyük imkan yaradır. Bir dəfə Şahbuzda olan qonaq və turistlər bu doyumsuz gözəllikləri görmək, əsrarəngiz məkanın dörd fəslinin bir-biri ilə harmoniya yaradan mənzərələrini seyr etmək üçün yenidən buraya qayıdır.***

## Bir təbiət gözəlidir Batabat

Hüsnünə onlarla şeirlər qoşulan, nəğmələr bəstələnən zirvəsi qarlı, ətəyi yaşıl dağları, şiş qayalıqları, dünyanın min bir rəngindən çalar alan çəmənlikləri, saf sulu bulaqları olan Batabatı Tanrı sanki turizm məkanı üçün yaratmışdır. Yazda baxdıqsa gözoxşayan çəmənlərində, yamaclarında bir-birini əvəz edən lalə, nərgiz, bənövşə talalarının özünəməxsus çalarları yaşıl rəngin burada hökm sürən bütün tonlarının fonunda insanı valeh edir. Güllərin, çiçəklərin dəniz səviyyəsindən yüzlərlə metr yüksəklikdə yerləşən yaylağın təmiz havasına qatdığı rayihə isə heç bir gözəl ətirlə müqayisə olunmayacaq dərəcədədir.

Batabat tək təbiət gözəli deyil, həm də tarixi abidələr məkanıdır. Qədim karvan yolu üzərində yerləşən və mehmanxana kimi istifadə olunan Fərhad evi, hər biri bir tarix olan mağaralar və göy cisimlərini müşahidə etmək üçün Batabat Astrofizika Rəsədxanasının da burada yerləşməsi həm xarici, həm də yerli turistlərin maraq dairəsini artırır.

Bir vaxtlar yolların bərbad vəziyyətdə olması üzündən bu gözəl yaylağa gəlmək çətinlik yaratsa da, Batabatın bir dəfə mehmanı olanları yaylaq öz cazibəsi ilə növbəti illərdə də yenidən cəlb edirdi. Artıq illərdir ki, Batabata gedən aşırımlı yollar da abadlaşdırılıb. Əvvəllər rayon mərkəzindən buraya çala-çuxurlara düşərək 45 dəqiqəyə çatan avtomobillər indi hamar yollarla şütüyərək 15-20 dəqiqədə orada olurlar.

Batabat səfərinə səhər tezdən nə qədər tez çıxsan belə, gələnlərin sayının çoxluğundan ora çatanda avtomobili saxlamağa yer tapmırsan. Çünki bura muxtar respublikada yay turizmi üçün ən gözəl məkandır. Həm də naxçıvanlılar öz istirahətləri ilə yanaşı, əziz qonaqlarını da bu füsunkar təbiətin qoynunda ağırlayıb-əzizləyirlər.

Bura tək istirahət məkanı deyil, həm də bu yerin insanlarının ruzi mənbəyidir. Yaz vaxtı yaylaqda göbə¬lək, əvəlik, ələyəz, baldırğan, kəklik¬otu, solmazçiçək, çobanyastığı, səhləb, böyrəkotu toplayan dəstə-dəstə insanlarla qarşılaşmaq olur. Batabata gələn buradan əliboş qayıtmaz: ya güllərdən hördüyü çələnglə, ya çəmənlərdən dərib dəstə bağladığı çiçəklə, ya da dadı doyumsuz nemətlərlə geri dönər. İnsanlar bunları da bir istirahət, əyləncə hesab edirlər. Çünki buradakı təmiz hava adamı yormur.










bu, tək o səbəbdən deyil. İnsanlar qış turizminə üstünlük verməklə fərqli bir istirahət etmiş olduqlarını düşünürlər. Yüksəkliklərin təmiz havasından yararlanmaq, təbii bitki örtüyünün verdiyi oksigendən faydalanmaq, ailəliklə xoş istirahət etmək, yaşadıqları həyatın streslərindən kənarlaşmaq, istirahət etdikləri bölgənin mədəniyyətini araşdırmaq istəyi qış turizmini son illər daha çox diqqətçəkən turizm növlərindən birinə çevirmişdir.

## Şahbuzun "qış nağılı"

Batabatın, Ağbulağın, Kükünün, Biçənəyin, Nursunun, Keçilinin, Külüsün qış fəslini görənlər, məncə, uzun illər bu gözəl təəssüratlardan ayrıla bilməz. Bəlkə də, söylədiklərim burada yaşayan insanlar üçün adi ola bilər. Təbiidir, axı bu yurd yerlərində yaşayanlar o gözəllikləri daim görür. Lakin kənardan gələn insanlar möcüzəli təbiətlə qarşılaşırlar. Dəniz səviyyəsindən yüz metrlərlə yüksəklikdə yerləşən bu yerlərin zirvəsi sanki göyə söykənən dağlar, sıldırım qayalar, göz baxdıqca uzanan dərələr, bu dərələrdə yağan qarın xüsusi fiqurlar yaratdığı kollar, dağlarda, yamaclarda yalnız bu şaxtalara tab gətirə bilən quşların, heyvanların ləpirləri, çayların üzərindəki körpü yaradan, ağaclardan sallanan salxım buzlar hansı turistin tamaşa edib yorğunluğunu çıxarmaq istədiyi mənzərələr deyil?

Şahbuz balının dillər əzbəri olmasında Batabatın rolu əvəzsizdir. Şahbuzlu arıçılar mövsümdə arı qutularını yaylağın cənnət sinəsinə yerləşdirərək payızda əl-əl axtarılan balın istehsalını buradakı güllərdən, çiçəklərdən, şirəçəkən arılara "tapşırırlar". Bu bal isə, yeyənlər bilir, çiçək ətri, gül dadı verir.

Batabatda istirahət o qədər mənalı keçir ki, Günəşin uca dağların arxasından qüruba enməsinin fərqində olmursan. Hava qaralanda, geri dönmək anı yaxınlaşanda: – kaş bir az da burada qalardım, – deyə düşünürsən. Belə olan halda narahat olmağa dəyməz. Çünki burada fəaliyyət göstərən "Batabat" otel-restoranı Batabata gələn turistləri hərtərəfli şəraiti ilə qarşılaya biləcək, onların rahatlığı üçün bütün imkanları olan məkandır. Burada gecələyib, səhərin sübh çağında Günəşin dan yerini yararaq meşəyə gecədən çökmüş şeh damlalarının üzərinə səpdiyi zərrin şəfəqlərinin insanı valeh edən mənzərəsini seyr etməyə dəyər.

## "Üzən ada" həm də ruhları oxşayan adadır

Təbiət növbəti möcüzələrindən birini də göstərib, dünyada bənzəri olmayan "Üzən ada"nı yaradıb. Adanı seyr edənlər üçünsə bu sehrli aləm həm də insan ruhunu dinləndirən bir adadır. Göz işlədikcə uzanan yaşıl çəmənliklərlə əhatə olunmuş və bu yaşıllıqların rəngini sularına hopdurmuş gölün ortasındakı ada təbiətin bambaşqa bir təqdimatıdır: çağlayan bulaqlar həzin, şaqqıltı ilə axan çaylar şaqraq nəğmələri ilə ruhları oxşayırsa, "Üzən ada" sükut melodiyası ilə səs-küylü şəhərlərin ilboyu gərginliklə evdən işə, işdən evə tələsən insanlarına mənəvi rahatlıq bəxş edir.

Ötən il Batabata gəlib "Üzən ada"nın fonunda fotoşəkil çəkdirənlər növbəti onu başqa bir səmtdə görürlər. Sanki təbiət də küləkləri ilə onu suyun üzərində gəzdirməklə insanları adanın dörd bir tərəfindəki gözəllikləri görməyə, fotoşəkillərə həkk etməyə çağırır.

## Zorbulaq "səsləyir": tamaşama gəl

Təbiətin heç özünə də agah olmayan möcüzəsi ilə yaranıb Zorbulaq. Görənlər, hüsnünə heyran olanlar, əlini buzlu suyunda bir neçə saniyə saxlaya bilməyənlər, büllurtək şəffaf suyunun həzin nəğməsini duyanlar bilir nədən danışıram mən. Zorbulaqdan... Gözəlliklər məkanı Batabatın uca zirvələrindən mənbə alıb dağların sinəsini yara-yara axıb gələrək bu bulaqda toxtayan təbiət ərməğanından söhbət açıram. Yəni Batabata gələsən, Zorbulağı görmədən qayıdasan, bu, mümkündürmü? Onda heç elə bil Batabata gəlməmisən, Ulu Yaradanın möcüzə "əsərini oxumamısan". Elə buna görə deyilmi ki, Batabata gələnlərin hər biri gəzintinin sonunda Zorbulağa qalxır, onu bir seyrəngah kimi seyr edir, suyundan içir, bu bulağın axarının Batabat gölünə qovuşan anda dalğalanan ləpələrinin "pıçıltısını" dinləyirlər.

Bulaq suyunun göldəki canlılara necə həyat verdiyinə saatlarla tamaşa etmək isə insanın ruhunu oxşayır.

## Biçənək, Keçili, Kükü, Nursu, Ağbulaq

Şahbuzun hər qarışı turizm üçün əlverişlidir. Yazda-yayda buradakı evlərin həyətlərində Batabat havası hiss olunur. Elə bu səbəbdən də sakinlərin belə bir deyimi yaranıb: – Həyətim elə bil Batabatdır.

Bütün kəndləri abadlaşdırılan, yol infrastrukturu müasirləşdirilən rayonun Biçənək, Keçili, Kükü, Nursu, Ağbulaq kəndləri isə sözün həqiqi mənasında, cənnətdir desək, yanılmarıq.

* * *

Biçənək Batabata çox yaxın ərazidədir. Zirvəsi buludlara söykənən dağların qoynuna sığınan bu kənd əsl turizm məkanıdır. Məşhur Biçənək meşəsindən əsən həzin küləklərin gətirdiyi sərinlik iyul-avqust aylarında cırhacır istidən "yaxa qurtarıb" buraya gələn qonaqlara heyrətamiz bir istirahət bəxş edir. Biçənəyin axşamçağıları adamı əməlli-başlı üşüdür. Kəndin saf və keyfiyyətli heyvandarlıq, tərəvəz məhsullarının dadı isə damaqlardan getməz.

* * *

Keçilidə Camal qalasının, Çınqıllı bulağın, Kükədə Qanlıgölün, Dərə¬boğazının, Pirdərəsinin gözəlliyi yolçunu yoldan edir. Yaşıllıqlar içərisində olan bu kəndlər havası, suyu ilə istirahət üçün ideal ¬məkanlardandır.

* * *

Güneyli-quzeyli, axarlı-baxarlı Nursu kəndi də quruculuqla müasirləşən, qonaqlıqaralı yurd yerlərindəndir. Həm də sevimli şairimiz Məmməd Arazın ata yurdudur. Burada yaradılan şairin ev-muzeyi turistlərin ilin bütün fəsillərində ən çox üz tutduğu ünvanlardan birinə çevrilib. Bir zamanlar "Bəlkə bu yerlərə bir də gəlmədim, duman salamat qal, çən salamat qal", – deyərək kəndlə vidalaşan şairin ev-muzeyi indi yüzlərlə turisti dumanlı-çənli təbiət gözəli Nursuya gətirir.

* * *

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq isə gözəl təbiəti, heyrətamiz landşaftı ilə turizm üçün çox əlverişli kənddir. Burada 2013-cü ildən fəaliyyət göstərən istirahət mərkəzi kənddə turizmin inkişafına təkan verib.




"2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Pro-qramı"na uyğun olaraq muxtar respublikanın kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür. Ötən illərdə Ağbulaq kəndində Xizək Mərkəzinin yaradılması burada yay turizmi ilə yanaşı, qış turizminin də əlverişli olduğunun göstəricisidir.

Kənddə turizmin inkişafı sahəsində digər tədbirlər də həyata keçirilib. Belə ki, kənddəki bütün evlərin dam örtüyü dəyişdirilib, fasadlar yenilənib, yararsız tikililər sökülüb, həyətlərdə abadlıq işləri aparılıb və çəpərlənib, lazımi kommunal məişət şəraiti yaradılıb. Yaşayış məntəqəsindən kənarda isə yeni təsərrüfat binaları tikilib. Həyata keçirilən tədbirlər, zəngin təbii turizm ehtiyatları və müasir sosial infrastruktur Ağbulaqda kənd turizminə üstünlük verənlər üçün ideal şərait yaradıb.

Adıçəkilən bu kəndlərin hər birində sakinlər tərəfindən də turistlərə onların tələbatını ödəyəcək səviyyədə evlər təklif olunur.

## Qış turizminə üstünlük verənlər

Ümumdünya Turizm Təşkilatının statistik göstəricilərinə görə, hər il dünya turistlərinin, təxminən, 30-35 faizi qış aylarında istirahət etməyə üstünlük verirlər. Bu, bir tərəfdən insanların məşğulluq sahəsi ilə bağlıdırsa, digər tərəfdən sözsüz ki, onlarda qış fəslinə olan sevgi, qışın romantik görüntülərinə heyranlıqdır.

Qış turizmi dedikdə insanın gözləri önündə, ilk olaraq, yüksək dağlıq ərazilərdə, əsasən, xizək idman növü canlanır. Lakin

Batabatın bənzərsiz təbiəti, burada gölün içərisində yayda "Üzən ada"nın şaxtadan hərəkətsizləşmiş qarlı qışını seyr etmək, Zorbulağın, Söyüdlü bulağın sıldırım buzlar altından həzin qış nağılı kim dinləmək istəməz? Keçilidə Camal qalasının, Çınqıllı bulağın, Kükdə Qanlıgölün, Dərəboğazının, Pirdərəsinin qış tamaşasından kim doyar ki?...

## Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır...

Yayda da, qışda da dincəlməyi planlaşdıran insanlar ölkədaxili, yoxsa xarici turlar seçimi qarşısında qalırlar. Düşünürəm ki, öncə hər bir insan ölkəsi daxilində olan turizm bölgələrinə üz tutmalı, istirahət etməlidir. Doğma Vətənimizi hərtərəfli tanıyandan sonra xarici ölkələrə səfərlərimiz özümüzünkü ilə onlarınkını müqayisə etməyimizə, yaxşıları özümüzdə də görmək istəyimizə şərait yaradar.

Fəsillərinin hər biri bir başqa olan Şahbuzun təbii gözəllikləri haqqında saatlarla danışmaq olar. Gələnlər görüb, bəyənib və bu gözəl bölgədə olan turist hər dəfə iştirahət barədə düşünəndə ruhuna hakim kəsilmiş "Şahbuzun hüsnünü eylədikcə yad, xəyalım bir anda açır qol-qanad" fikirləri ilə yenə bu yurd yerini seçir. Gördüklərini isə ¬yaxınları ilə paylaşırlar.

Elə bu yazını da həmin gözəlliklər haqqında eşidən, lakin görməyənlər üçün yazdıq ki, qoy onlar da gəlsinlər, görsünlər. Buradakı bənzərsiz təbiəti və onun qoynundakı istirahəti canlı olaraq görmək, duymaq tam başqadır. Məhz bu anda anlamaq olur təbiətin insanlara lütfünü...

***Mətanət Məmmədova***

# Böyük zəfər



***1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğal edilməsindən sonra tarixi torpaqlarımızın xeyli hissəsi qonşu Sovet Respublikalarına verildi. Bu azmış kimi Sovet milli siyasəti adı altında Qarabağın Dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adı altında bir qurum yaradıldı. Bununla da o zaman çox mübahisələr və gərginliklər doğuran Dağlıq Qarabağ problemi əsasən "həll edilmiş oldu". Bu isə gələcəkdə Ermənistanın və ona himayə edənlərin Qarabağ kartından öz məqsədləri üçün istifadə etməsinə zəmin yaradaraq, gələcək münaqişənin əsasını qoydu.***

XX əsrin sonlarında baş verən hadisələr bunu tamamilə təsdiq etdi. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərdi. Nəticədə yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından çıxarılıdı, qətlə yetirilidi.



Bəli, XX əsrin 80 -ci illərində bu münaqişə yenidən alovlandı. Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdı. Bu elə bir dövrə təsadüf edirdi ki, Azərbaycanda hərcmərcilik hökm sürürdü. Bundan istifadə edən Ermənistan torpaqlarımızın 20% - ni işğal etmişdi. Eyni zamanda, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdü.

Birinci Qarabağ müharibəsi atəşkəs müqaviləsi ilə başa çatdı, lakin bundan sonra da ermənilər cinayətkar əməllərindən əl çəkmir, cəbhə xəttində tez-tez gərginlik yaradır, təxribatlar törədirdilər. Buna səbəb isə danışıqlar prosesinin qəsdən uzadılması, heç bir nəticə verməməsi, işğala son qoyulmaması idi.

Ermənistanın problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri siyasi - danışıqlar yolu ilə azad etməkdən imtina etməsi, beynəlxalq hüquq normalarına uyğun olaraq ərazi bütövlüyünü təmin etmək məqsədi ilə Azərbaycan Respublikasını hərbi güc tətbiq etmək məcburiyyətində qoydu. Azərbaycan Respublikası müstəqil, demokratik, hüquqi dövlət dövlət olmaqla ərazi bütövlüyünü təmin etmək üçün hərb yolunu üstün tutdu. Azərbaycan Respublikası 27 sentyabr 2020-ci il tarixli fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan ölkənin bütün ərazilərində hərbi vəziyyət elan etmiş, 28 sentyabr 2020- ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilmişdir.

Adi günlərdən biri olan 2020-ci ilin 27 sentyabrı artıq tarixə döndü və şanlı zəfər tariximizin başlanğıcına çevrildi. 44 günlük Vətən savaşımız tarix boyu qürur mənbəyimiz olaraq qalacaq.İlk gündən Azərbaycan Respublikasının silahlı qüvvələri tərəfindən baş vermiş əks hücum əməliyyatı uğurla həyata keçirilməyə başladı. Prezident İlham Əliyevin başçılığı ilə qurulan tam nizami ordu 30 ildə möhkəmləndirilmiş əraziləri 44 gün ərzində darmadağın etməyə nail oldu. Bu vətən savaşı təkcə Ermənistanı yox, eyni zamanda bütün dünyanı heyrətə gətirdi. Dünya Azərbaycan ordusunun nəyə qadir olduğunun şahidi oldu. 44 gün davam edən vətən savaşındakı qələbə Azərbaycan xalqının gücünün, birliyinin nəticəsi idi.

Vətən müharibəsi zamanı bizim itirdiklərimiz də oldu, qazandıqlarımız da. Müharibədə qazandığımız nailiyyətlər Azərbaycan ordusunun gücü ilə yanaşı, ölkə rəhbəri tərəfindən aparılan uğurlu diplomatik siyasətlə bağlı idi. Azərbaycan xalqı 30 illik dövr ərzində işğalla barışmadı. Ərazi bütövlüyümüzü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Prezident İlham Əliyevin dövründə yetişən, formalaşan vətənpərvər gəncliyimiz vətənini qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını dönə-dönə sübut etdi.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətdi. Təxribatın qarşısı Azərbaycan ordusu tərəfindən qətiyyətlə alındı. Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsinə bir döyüş də -Tovuz döyüşləri qızıl hərflərlə yazıldı. Ordumuzun böyük zəfərə doğru irəliləməsi 2016-cı il Aprel döyüşlərindən, 2018-ci ildə Naxçıvanda uğurla həyata keçirilən Günnüt əməliyyatından və 2020-ci il Tovuz döyüşlərindən keçir. Xüsusilə atəşkəsin imzalanmasından 22 il sonra başlanan Aprel döyüşlərində Ermənistan ordusu ağır zərbələr aldı. Bununla da "yenilməz, qüdrətli" Ermənistan ordusu mifi darmadağın edildi. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür hücumlarının qarşısını almağa qadirdir. Tovuz döyüləri isə ölkəmizdə xalq və prezident,xalq və ordu birliyinin təcəssümünə çevirildi.Tovuz döyüşləri Ermənistanın hərbi gücsüzlüyünü, onun geosiyasi nüfuzunun zəifliyini və Azərbaycan ordusu qarşısında məğlub olacağını bir daha göstərmiş oldu. İstər Aprel döyüşləri, istərsə də Tovuz döyüşləri xalqımızın döyüş ruhunun, qələbə əzminin nə qədər yüksək olduğunu nümayiş etdirdi.

Beləliklə də, ordumuzun Aprel döyüşləri, Tovuz döyüşləri, uğurlu Günnüt əməliyyatı Azərbaycanın vətən müharibəsində qazanmış olduğu Böyük Zəfərin başlanğıcı, ilk qığılcımları idi. Azərbaycan 2020-ci ilin 27 sentyabrında başlamış və 44 gün davam etmiş II Qarabağ müharibəsini zəfərlə başa çatdırdı. 44 günlük vətən müharibəsi Azərbaycanın 200 ildən sonrakı tarixinin ilk qələbəsi idi. Öz doğma yurdlarına qayıtmaq istəyən Azərbaycan vətəndaşlarının uzun müddətli həsrətinə son qoyuldu. 2023- cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra geniş miqyaslı hərbi təxribatlar və terror hücumları törətdi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular.

Allah dünyanı və insanı yaratdı. Dünya tarixini yazan və yaradanlar isə insanlar oldu. "Tarixi yaradanlar olmasaydı, onu yazanlar da olmazdı" qənaəti məhz burdan yaranır. Dünyada tarix haqqında yazanlar çox olsa da, tarixi yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir. Belə bir tarixi isə biz 27 sentyabr 2020-ci ildə yazdıq. Bu tarixi yazanlar isə öz canlarından keçən, Qarabağımızı azad görmək istəyən, 30 illik həsrətə son qoyan, adlarını tarixə ömürlük yazan şəhidlərimiz oldu. Bu tarixin başlanğıcı Azərbaycanda müstəqillik əldə edilməsində böyük xidməti olan, vətəndaş müharibəsinin qarşısını alan, Azərbaycanda hüquqi demokratik cəmiyyəti quran, Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyev olmuşdur. O, Azərbaycanımızı Şuşasız, Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Ağdamsız və s. işğal atında olan ərazilərsiz təsəvvür etmədiyini söyləyirdi və tam əminliklə deyirdi: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa tək şuşalılar üçün yox, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır. Hər bir azərbaycanlı üçün iftixar nöqtəsidir. Azərbaycanın gözüdür."

Ata vəsiyyətini, ata arzusunu, ata əminliyini ata etibarının layiqli davamçısı, Azərbaycanı dünyaya tanıdan Möhtərəm Prezidentimiz bunları layiqincə yerinə yetirdi. Prezident İlham Əliyev iki əsr ərzində yeganə ağır problemimiz olan Qarabağ münaqişəsini həll etdi. Yoluna qoyulması mümkün olmayan, hər dəfə yenidən alovlanandа minlərlə insanın, ailənin faciəsinə çevrilən, regionun bu günü və gələcəyi üçün ən böyük təhdid kimi qalan bu münaqişəni "Dəmir Yumruq"un zərbəsi ilə cəmi 44 gündə həll etdi.

Bəs nə idi bu qələbənin sirri? Cavab verirəm: milli həmrəylik, çevik hərbi manevrlər, xalq birliyi, qətiyyətli siyasi iradə, düzgün və düşünülmüş hərbi strateqiya, güclü və müasir ordu, təsirli informasiya siyasəti, tarixi missiya, Vətən sevgisi, qüdrətli dövlət – bü müsbət xüsusiyyətlərin vəhdəti, birləşməsi.

**ADPU-nin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi- Aidə Qurban qızı Musayeva**

# Həqiqətə və dəyərlərə sadiqlik timsalı



*Hər sözün ey alim,*
*baş-ayağı var,*
*Sözün arasına söz*
*qatma zinhar.*
***Sədi Şirazi***

Bəşər övladı dünyaya göz açdığında artıq uca Tanrı ona fundamental (təbii) insani keyfiyyətləri ya bəxş etmiş olur, ya da etməmiş. Çünki fundamental insani keyfiyyətlər gendən, təbiətdən gələn təməl varlıqdır. Əlbəttə, yüksək keyfiyyətlər Allahın insan övladına lütfüdür. Bu yüksək keyfiyyətləri isə yalnız milli dəyanət tərbiyəsi ilə qorumaq və ucaltmaq mümkündür. Milli qürur tərbiyəsi isə birbaşa ailədə və məktəbdə aşılanır...

...Qədim Türk-Oğuz yurdu Dərələyəz mahalının Sust kəndində halal zəhməti ilə dolanan, yüksək mənəvi-əxlaqı dəyərləri ilə seçilən, gözü-könlü tox ailədə, nağıllarda deyildiyi kimi bir qız övladı doğuldu. Elin hörmətli, sayılıb-seçilən şəxslərindən olan Nağı kişi öz ömür-gün yoldaşı, hər barmağından bir mərifət yağan Nazlı xanımla birgə körpəyə Mahirə adını qoydular. Deyirlər, ad qeybdən gələn İlahi bir səsdir, sahibinə verilmək üçün əks-səda salır. Ərəbcədən adının mənası sərraf, məharətli, bacarıqlı, bilikli anlamında olan Mahirəyə, bəlkə də, təbii dəyərlər Tanrı tərəfindən elə ana bətnində olarkən bəxş edilibmiş. Kim bilir?

Hər addımda ailəsində müqəddəslik tərbiyəsi aşılanan bu qızcığaz da digər qardaşbacıları kimi inam və iman sahibi kimi boyabaşa çatmışdı. "Bir tikə çörəyin varsa, şükür et, artığını bölüş!", "Nə qədər yüksəlsən də, heç kimə yuxarıdan-aşağı baxma!", - ruhunda tərbiyə alan Mahirə xanım Nağı qızı şərəflə yaşamaqda olduğu ömür yolunda bu ənənələrə sadiq qaldı. Filologiya elminə böyük töhfələr vermiş, Qərbi Azərbaycanın azman kişilərindən olan, el ağsaqqalı, professor Həsən Mirzənin həyat məktəbində şəxsiyyət, ziyalı, pedaqoq, alim kimi yetişən bu istedad sahibi hər zaman öz yoluna, həqiqətlərinə, adətinə, törəsinə, tərbiyəsinə səmimi və sədaqətli oldu. Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət və ehtiram bu ailə və onun doğma ətrafında hər zaman milli prinsip olaraq qorunub, qorunur və qorunacaq.

Adətim üzrə gündəlik mütaliə vərdişimə uyğun olaraq, xüsusilə də bədii və poeziya ədəbiyyatına, sənətə vurğunluğumdan yana şair və yazıçıların əsərlərini daha çox oxuyub incələyirəm. Lap uşaqlıqdan dərk etmişəm ki, poeziya insan həyatına oxşayır, o, fizika və riyaziyyatla musiqi arasındakı səmərəli mübahisədən qaynaqlanır və formalaşır, eləcə də bunun sayəsində mənəvi zövq və həzz mənbəyinə çevrilir. Peşə etibarilə müəllim olduğuma görə də, həmişə ədəbiyyatı pedaqogikada tərbiyəvi əhəmiyyətə malik, üstün metod sayıram. Yaradıcılığında sentimental ruha yer verən şair və yazıçıları çox zaman anlaya bilmədiyimə görə, onları təqdir də etməmişəm. Lakin onu da bilirəm ki, hər bir şair və yazıçının yaradıcılığında sentimental motivlər, məqamlar mütləq mövcuddur. Şairə Mahirə Nağıqızının yaradıcılığında da bu hal xali deyildir. Amma Mahirə xanımda, onun poeziyasında sentimental duyğu fərdi formada deyil, ümummilli ruhun içərisindədir. Yəni, Mahirə Nağıqızı xalqın ağrı-acısını, müsibətlərini, faciələrini, yurd nisgilini duyğusallığı ilə ruhuna çəkərək Vətən sevgisi, qeyrəti ilə milli-mənəvi ruhu sağaltmaq naminə dağlara, daşlara, çaylara, çiçəklərə ünvanlı sözləri öz şeirlərində ustalıq və peşəkarlıqla elə yoğurub yapır ki, sanki vətənin yaralarını sağaltmaq üçün məlhəm hazırlayır. Yəni, onun şeirlərində, adətən çarəsiz dərd yoxdur. Dərd semantikasına görə, onun bu qəbildən olan şeirləri poetik kanonlarla, bəşəri bədii normativlərlə səsləşir. Bunlar gözəl, professional aforizm səviyyəsindədir. Mahirə xanımın bəhs etdiyimiz şeirləri bir mənəvi sərvət kimi, xalqımızın əqli-hissi istifadəsinə yarayır, eyni zamanda ədəbi ünsiyyətin kütləviləşməsinə təsir göstərir. Misal üçün, şairənin "Ana torpaq" şeirində bu məqamı daha bariz şəkildə görmək olar:

Sən böyütdün layla-layla,
Beşiyimiz qara torpaq.
Çölün binəm, dağın yayla,
Ev- eşiymiz qara torpaq.
Al bayrağım sərkərimiz,
Dağın-daşın əsgərimiz.
Sinən oldu səngərimiz,
Keşiyimiz, qara torpaq.
Oğlunun tək təmannası,
Düşmənindən bac alması.
Dərdlərinin sağalması,
Murazımız, qara torpaq.
Şuşada çatılsın ocaq,
Kəlbəcər açacaq qucaq,
Laçın-Qubadlı olacaq
Güzarımız, qara torpaq.
Yolum üstə duman, çisək,
Kürəyimə əlini çək.
Qaldıq vətən-dedik, ölsək,
Məzarımız, qara torpaq.

Ana Vətən konseptr çox gözəl kod yaradır. Bu fikri şeirə çevirməyin özünəməxsus çətinlikləri var. Mahirə xanımın düşüncəsində bu poetik konseptr hərəkətə gəlir, bədii məzmun cazibəli fona çevrilir: murazımız, güzarımız, məzarımız, qara torpaq!

Mahirə Nağıqızı xarakter etibarı ilə olduqca həssas və duyğusal insandır. Şairə bilir ki, ürəkdən gəlməyən söz onu oxuyanları, sevənləri incidər. Ona görə də, daim həyata nikbin baxmağı sevər, əsasən də insanların mənəvi saflığına, onların yaradıcı imkanlarının İlahi qüdrətdən doğulduğuna inandığı üçün həmişə onlara yol açmaqda kömək edər, yardımçı olar. Onun fikrinə görə, hər bir azərbaycanlı şair və yazıçı üçün insan zəhmətini, vətən sevgisini, yurd həsrətini, gözəllik vəsfini, qəhrəmanlıq nümunələrini ən gözəl formada yaratmaq onların ümdə vəzifəsidir. Təbii ki, bu vəzifə çətin, lakin olduqca şərəflidir. Məhz bu keyfiyyətlərə malik olduğu üçün Mahirə xanım daim şeirin çətin yolunu şərəflə, ləyaqətlə və örnək olaraq addımlayır.

Bədii ədəbiyyatdan az-çox məlumatı olan istənilən şəxs Mahirə xanımın poeziya yaradıcılığı ilə tanış olduqca görür ki, şairə sözün məqamında, yerində işlədilməsinin əvəzedilməz ustasıdır. Şairə zəngin həyat müşahidələrini ümumiləşdirə bilir, bədii sənətin dili ilə cəmiyyətə davamlı olaraq faydalı söz deməyə can atır, poetik lövhələr verir. Mənə elə gəlir ki, bir alim kimi onu şeirə vadar edən ən böyük təkan məhz oxuculara bol-bol ibrətli söz çatdırmaq ehtiyacıdır. Şeirdə fikirləri yığcam yazmağı bacardığı kimi, həyat hadisələrinə estetik münasibəti və bənzətmələri də, dərin məzmunda, həm də axıcılıqla verməyi mükəmməl bacarır. Bu nadir poeziya üslubu hər şairə nəsib olan istedad deyil. Şeiriyyəti təmin edən sirli nöqtələr elə budur. Şairənin bənzətmələri, həm sosial semantikası, həm də qeyri-adiliyi və təbiiliyi ilə diqqəti çəkir. Bəzən Mahirə Nağıqızının 3-4 bəndlik şeirini oxuyanda sanki böyük bir poemanı əhatə edəcək məlumat zənginliyi ilə qarşılaşırıq. Təbii ki, bu da şairin geniş dünyagörüşünə sahib, həssas müşahidələrə malik olmasından irəli gəlir.

Mahirə xanımın yaradıcılığında bir şeirin digərinə bənzərlik elementlərinə çox az, nadir hallarda rast gəlinir. Çünki o, həmişə hər bir mövzuya uyğun şəkildə bədii ifadə və tərənnüm vasitələri düşünüb tapır və hər bir şeirində oxucu ilə İlahidən bəxş edilmiş yeni sözlərlə görüşə gələrək oxucunu düşündürməyi və sevindirməyi bacarır. Söz ustadı olmaq İlahinin bəxşidir. Söz istedadı alimə bəxş olunanda onların muncuq kimi düzülüb yaratdığı bənd və beytlər insan düşüncəsinə aydınlıq yolu göstərir.

Böyük Sədi yazır:
Hər sözün ey alim, baş-ayağı var,
Sözün arasına söz qatma zinhar.
Ağıllı sakitlik görməsə bir an,
Dil açıb bir söz də söyləməz insan.

Bəli, Mahirə xanım söz sərrafıdır. Şairənin söz səltənəti həm də ona görə qüvvətlidir ki, şairənin yaradıcılığında alim təfəkkürü ilə poeziya səltənətinin sintezi var. Xüsusi olaraq qeyd edim ki, Mahirə xanımı həmmüasirlərindən fərqləndirən cəhətlərdən biri də yuxarıda qeyd etdiyim kimi onun nikbinliyidir. Bu nikbinlik içərisində cəmiyyəti düşünən, sosial həyata fəal müdaxilə edən şairənin qayğıkeşlik, humanistlik portreti canlanır. Həm də onun yaradıcılığı içərisində yer alan kədər, dərd, həsrət, nisgil sətir və beytlərdə elə mükəmməl şəkildə əridilir ki, şeir insanı ağlatmır, əksinə, onu mübarizəyə, inama, imana çağırır. Amma burada hissi tərənnüm əqli ümumiləşdirməyə yuxarıdan baxır. Doğrudur bu zaman ictimai məzmun həcm etibarilə böyük yer tutur, ancaq ifadə tərzində Mahirə xanımın (məhz dilçi olduğundan) lirik düşüncəsinin mühüm forması olan dil materialı üstünlük təşkil edir. Haqlı olaraq tənqidçi, ədəbiyyatşünas alim Rüstəm Kamal şairə Mahirə Nağıqızının yaradıcılığını təhlil edərkən onu payız fəsli ilə eyniləşdirmişdir. Bu fəsildə insanın enerjisi çoxalır, eyni zamanda yazılan əsərlərin effekti yüksəlir, ən vacib elmi-bədii mətləbləri ifadə edən şəxslər, nəzərə çadtdırılması zərurəti olan çalarlar qabarıqlaşır. Xüsusilə də, aktuallaşma meyli güclənir.

Mahirə Hüseynovaya uca Tanrı böyük istedadla yanaşı peşə və sənət xüsusiyyətlərindən doğan üstünlüklər də bəxş etmişdir. Mahirə xanım alim, müəllim, həm də istedadlı şairə olduğuna görə Azərbaycan dilində ədəbi dillə bədii dilin xüsusiyyətlərini, onların sərhədlərini, işlənmə məqamlarını, üslub maneralarını yaxşı bildiyi üçün onun yaradıcılığındakı peşəkarlıq daha dolğun və parlaq görünür.

Professor Mahirə xanım Hüseynovanın bioqrafiyası, həmçinin dilçi-türkoloq alim kimi də çox zəngin və rəngarəngdir. Alimin istər fəlsəfə doktorluğu, istərsə də elmlər doktorluğu dissertasiya işləri uzaq keçmişlərdən günümüzədək gəlib çıxmış ulu ozanaşıq yaradıcılığının dərin tədqiqinə həsr olunmuşdur. Yorulmadan elmi-tədqiqat işləri ilə indi də məşğuldur. Türk dünyasında istinad edilən biri-birindən sanballı məqalə və kitabları ilə elmimiz qarşısındakı sahəvi problematikanın həlli istiqamətində böyük töhfələr verməkdədir. Eyni zamanda, dilçilik üzrə tədqiqat işləri aparan neçə-neçə doktorant və dissertantlara elmi rəhbərlik və məsləhətçilik edir. Həmçinin, Mahirə xanım elm, təhsil təşkilatçısı kimi də böyük milli layihələrə imza atıb. Tanınmış alimin rəhbərliyi altında səviyyəli elmi-nəzəri bazaya malik bir neçə beynəlxalq elmi jurnal da çap olunur. Təşkil etdiyi seminar və konfranslarda türk dünyasının ünlü alimləri ortaq dil, əlifba, imla və s. problemlərin həlli istiqamətində bir araya gələrək fundamental elmi-tədqiqat işləri həyata keçirirlər.

Həmçinin, elmi ictimaiyyət professor Mahirə xanım Hüseynovanı elmimizi, yad təsirlərdən, saxta tədqiqatlardan, zərərli yanaşmalardan qoruyan ziyalılar sırasında seçilən alim kimi də tanıyır və bu sahədəki prinsipiallığına görə, ona böyük rəğbət göstərir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya və pedaqogika elm sahələri üzrə Ekspert Şurasının sədri kimi ağır və məsuliyyətli işi də öz zərif çiyinləri üzərinə götürən professor Mahirə xanım Hüseynova son illər əldə edilən elmi tərəqqinin tələbləri ilə uyğunlaşa bilməyən, nəzəri və praktiki səviyyəsini yüksəltməyən, köhnə xidmətləri ilə kifayətlənərək yeniliklərə maneçilik törədən insanları tənqid edərək onları ciddi tədqiqatlarla məşğul olmağa məcbur edir desək, yanılmarıq. Ən əsası isə alim adına, elmə uyğun olmayan işlərə meydan verməyərək onları geri qaytararaq, daha dolğun və vacib istiqamətlər üzrə tədqiqat aparmalarını tövsiyə edir.

Bəli, dəyərli oxucu, göründüyü kimi fəaliyyət və yaradıcılığı vüsət əhəmiyyətli olan professor Mahirə xanım Hüseynovanın dərin mənalı həyat və fəaliyyəti, gördüyü məqsədyönlü işlər çoxşaxəliliyi ilə seçilir. Ona görə də onun özü haqqında və gördüyü işlər haqqında biri-birindən maraqlı məqalələr yazmaq olar. Təbii ki, Mahirə xanım bütün bu işləri vətən və xalqı qarşısındakı missiyası olaraq dayanmadan, sevə-sevə yerinə yetirir, hətta bəzən Tanrı əmanəti olan şirin canının sağlamlığını düşünmədən belə. Bu həyat və mənalı fəaliyyət yolu artıq onun barışdığı alın yazısı olan taledir. Çünki o, həqiqətlərə və dəyərlərə ömür boyu sadiq qalan insandır.

Bu yerdə mən də müfəssəl yazımı müxtəsər edib nəzzam şəxsiyyətin ömür yolunda qazandığı heyrətamiz uğurların daha da parlaq olmasını böyük Allahdan diləyirəm. Güclü bədii və elmi potensialı olan Mahirə xanımı növbəti doğum gününün tamam olması münasibətilə səmimi qəlbdən təbrik edir, ona can sağlığı, uzun ömür arzulayıram. Qarşıdakı doğum illərini, yubileylərini doğulduğu Dərələyəz mahalının Sust kəndində keçirməyimizi Allah nəsibimiz etsin.

P.S. Professor Mahirə Nağıqızının Beynəlxalq Muğam Mərkəzində keçirilən yaradıcılıq gecəsində ifadə etdiyi "Qərbi Azərbaycan İcmasının üzvü olaraq, Qərbi Azərbaycana qayıdana qədər Ali Baş Komandanımızın rəhbərliyi ilə bu istiqamətdə yazıb-yaradacaq, tədqiqatlar aparacaq və sonrakı nəsillərin maariflənməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu missiyanı şərəflə və daha böyük məsuliyyətlə daşımaq borcumdur", -fikir bir daha təsdiq etdi ki, Vətənə və xalqa xidmət şairənin həyat amalıdır.

***Dərin hörmət və ehtiramla***
***ADPU-nun Quba filialının direktoru,***
***Fizika elmləri doktoru, dosent***
***Yusif Alıyev***

# Azad torpaqların iqtisadiyyatı nə vəd edir?





***Bütün müharibələr gec-tez bitir, işğal edilən ərazilər öz gerçək sahibinə qayıdır. Sonra yenidəndoğulma prosesi başlayır, eynilə Qarabağdakı kimi. Qarabağda gedən bərpa işin görünən tərəfidir, bir də tamamilə dağıdılan, tarixdən silinən, izitozu qalmayan sərvətlərimizi, abidələrimizi düşünün. Onlar geri qaytarılmayacaq şəkildə itirdiyimiz tariximizdir. Biz dağıdılan məktəbi yenidən tikə bilərik, amma minillik məscidi, türbəni, abidəni yenidən tikmək olmur. Hərbi əməliyyatlar zamanı Azərbaycan hər nə qədər ehtiyatla davransa da, işğalçılar, xüsusilə, bərpası mümkün olmayacaq abidələrimizə zərər veriblər. Torpaqlar illərlə zərərli maddələrlə aşındırılıb, qulluq edilməyib. Əkin sahələrini yenidən əkinə yararlı hala gətirmək üçün ciddi işlər görülməlidir.***

Torpaqlarımız azad edildikdən sonra həmin ərazilərdə çox sürətlə yenidənqurma, abadlıq işləri vüsət aldı. Yaşayış binaları, parklar, iaşə obyektləri, müəssisələr, zavod və fabriklər inşa edildi. Uzun müddətdir ki, Qarabağa köç başlayıb, Bakıda və ölkənin digər yerlərində məskunlaşmış məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. Onların evlə təminatı uğurla aparılır, lakin, maraqlıdır, geri qayıdan əhalinin iş imkanları nə qədər geniş olacaq? 30 ildən sonra Qarabağa qayıdan yerli əhali nə işlə məşğul olacaq? İqtisadiyyat burada necə inkişaf etdiriləcək?

### 600 min hektar əkin sahəsi əkiləcək

Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək.

Ümumiyyətlə, proqnozlara əsasən, işğaldan azad edilən bölgələrimiz gələcəkdə 10 milyard manat gəlir formalaşdıracaq ki, bu da ümumdaxili məhsulun inkişafına təkan verəcək. Çünki həmin bölgələrin müxtəlif sahələr üzrə böyük iqtisadi potensialı var. Yəni, həm kənd təsərrüfatı, həm sənaye, həm də xidmət sektorları üzrə geniş imkanlar mövcuddur. Xüsusilə, azad edilən ərazilərin turizm potensialı olduqca böyükdür. Həmçinin, bu torpaqlar heyvandarlıq, meyvəçilik, bitkiçilik, emal sənayesi üzrə geniş imkanlara malikdir. Təkcə kənd təsərrüfatı üzrə 600 min hektar torpaq əkilib-biçilməyə hazırdır.

İşğaldan azad edilmiş ərazilərdə azad iqtisadi zonaların, aqroparkların salınması və fəaliyyəti həyata keçirilir. Əlavə olaraq, geniş infrastruktur layihələrinin həyata keçirilməsi, hava limanlarının salınması həmin bölgələrin ixrac potensialı və sahibkarlığın inkişafına xidmət edəcək. Bölgədə iqtisadiyyat inkişaf etdikcə, məşğulluq imkanları da yaranacaq, bu da yeni iş yerlərinin açılması deməkdir.

Qeyd edək ki, azad edilən ərazilərə köçürülən və işləməyən ailələrə 600 manat vəsait ödənilir, həmçinin orada fəaliyyət göstərən işçilərin təmin olunduğu məvacib digər bölgələrdə çalışanların əməkhaqlarına nisbətən daha çoxdur.

### Zavod-fabrik iqtisadiyyatı dirçələcək

Ötən ilin sonlarına olan məlumata əsasən, Ağdam Sənaye Parkında qeydiyyatdan keçən 25 rezidentin artıq 10-dan çoxu tikinti-quraşdırma işlərinə başlayıb. Parkda gələn ilin ilk yarısında bir sıra müəssisələrin, o cümlədən "Rail Trans Service" MMC tərəfindən inşa olunan avtomatika və telemexanika zavodunun fəaliyyətə başlaması planlaşdırılıb.

Zavodun tikintisi üçün Ağdam Sənaye Parkı ərazisində bir hektara yaxın torpaq sahəsi ayrılıb. Müəssisənin tikinti sahəsi 2 min 739 kvadratmetrdir. Avtomatika və telemexanika istehsalı zavodunun tikintisinə 2023-cü ilin oktyabr ayında başlanılıb. 2024-cü ilin may ayında inşaat işlərinin başa çatdırılaraq müəssisənin işə salınması nəzərdə tutulub. Zavodda dəmir yolu üçün avadanlıqlar istehsal olunacaq. Burada 45 nəfər işlə təmin ediləcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkına investorlar tərəfindən 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda 10-dan çox sahibkarlıq subyekti tərəfindən fəal tikinti-quraşdırma, digərləri isə layihələndirmə və ərazinin topoqrafik işləri həyata keçirir.

Həmçinin, ötən ilin may ayında Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında olaraq burada inşa ediləcək yeni müəssisələrin təməlini qoydu. Sənaye zonasında 4 müəssisə inşa edilib. Bunlar "Avto Lizinq Azərbaycan" MMC, "Holcim Azərbaycan" ASC, "Az-Tex-Import" MMC və "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələridir.

«İmprotex Qarabağ Sənaye Kompleksi» MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında şəkildə xüsusi təyinatlı texnika və metal məmulatların istehsalı nəzərdə tutulur. Müəssisədə ildə 100 ədəd mexaniki minatəmizləyən, 100 ədəd yanğınsöndürən və 300 ədəd tentli yarımqoşqu istehsal olunacaq. Qeyd edək ki, müəssisənin istehsal edəcəyi məhsullar bilavasitə işğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi üçün də istifadə edilə bilər.

Müəssisəyə ayrılan 5 hektar ərazidə investisiya həcmi 7,4 milyon manat olan layihə reallaşdırılacaq. Layihənin həyata keçirilməsi ilə 120-dən çox iş yeri yaradılacaq. İstehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, Xəzəryanı və Şərqi Avropa ölkələrinə ixracı da planlaşdırılır. Azərbaycan Prezidenti müəssisənin təməlini qoydu.

### Qlobal bazara çıxış imkanları

İşğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı sürətlə gedir, çünki bu bölgə də ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olmalıdır. Regionun dayanıqlı inkişafı burada iqtisadiyyatın ehtiyaclarının doğru resurslarla təmin edilməsindən asılı olacaq, təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verəcək. İşğaldan azad edildikdən sonra xarici investorlar Qarabağa yatırım yatırmaq üçün hazırdır. Bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya, ABŞ və s. işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək arzusunda olduğunu bildirib. Azərbaycan dövləti də dost ölkələrlə bu sahədə əməkdaşlıq etmək niyyətini açıqlayıb.

Möhkəm təməl üzərində qurulan yaşayışı təmin etməklə, iş yerlərini artırmaqla, bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə payını işğaldan öncəki vəziyyətə çatdıra və onu davamlı artırmaq mümkündür. Bu prosesdə iş adamlarının, sərmayədarların, investorların ciddi təkliflərinə dövlət müsbət cavab verir. Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcək.

Xüsusilə, Şuşa şəhərinin Qarabağ xanlığının paytaxtı olması, mədəniyyət və incəsənət mərkəzi kimi inkişaf etməsi, Qarabağın İran, Türkiyə, Ərəbistan, Hindistan və Rusiya ilə karvan ticarət yollarının qovşağında yerləşməsi regionda iqtisadi imkanları artırıb.

### Aqrar imkanlar daha çoxdur

Aqrar rayon olan Füzulidə iqtisadiyyatın əsas sahəsini kənd təsərrüfatı təşkil edir. Rayonda mühüm ərzaq məhsulu olan taxılçılığın inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizin kifayət qədər böyük iqtisadi potensialı var. Onların arasında Füzuli rayonu iqtisadi potensialına görə seçilən rayonlardan biridir. Füzuli rayonunda 25.5 min ha. örüş-otlaq və biçənək sahəsi var və əhalinin maldarlıq sahəsində olan təsərrüfatçılıq ənənələri olduqca qədimdir. Rayonda heyvandarlıq sektoru ilə bağlı aqrar potensial yüksək olub.

Ağdam rayonu da potensialına görə Azərbaycan iqtisadiyyatında mühüm paya sahibdir. Respublikanın ən inkişaf etmiş, güclü sənayesi və kənd təsərrüfatı, böyük iqtisadi potensialı olan rayonlardandır. Ağdam ağır yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayondur. Təcavüz zamanı ərazisinin 70 faizdən çoxunu itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirdi. 40 min ha-dan çox əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda kənd təsərrüfatının əsasını heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, bostançılıq, üzümçülük, meyvəçilik təşkil edirdi. Bu rayonun yenidən Azərbaycan iqtisadiyyatında ağır çəkiyə sahib olacağı günlər çox da uzaqda deyil.

İqtisadiyyatının əsasını heyvandarlıq və əkinçilik təşkil edən Laçın rayonun kənd təsərrüfatına yararlı sahəsi 76 min hektar idi. Bunun 11,1 hektarı şum yeri, 0,3 min hektarı çoxillik bitkilər üçün nəzərdə tutulmuş ərazi, 5,2 min hektarı biçənəklər, 56,7 min hektarı isə otlaqlar idi. Yenidən bu ərazilərin əkilib-biçilməsi dənli-paxlalı bitkilərin xaricə ixrac olunması deməkdir.

Xüsusilə Zəngilan rayonu iki ölkə ilə qonşu dəhlizlərə malik olmaqla xarici ticarət üçün unikal imkanlara sahibdir. Bölgənin iqtisadiyyatı üçün bu əhəmiyyətli üstnlükdür. Tranzit nöqteyi-nəzərdən İran islam Respublikası ilə ticarət münasibətləri yarana bilər. Həmçinin, Zəngilan turizm potensialı yüksək olan rayondur.

***Lalə Mehralı***

# “Ermənistanın KTMT-dən çıxması bu dövrdə gözlənilir”

***Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov “Moskva-Baku” portalına müsahibəsində Bakı və İrəvanın tezliklə sülh sazişi imzalaya biləcəyini və Gürcüstandakı seçkilərin Zaqafqaziyaya necə təsir edəcəyini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***






**- Andrey Vladimiroviç, BRİCS-in Kazanda keçirilən sammitində İlham Əliyevlə Nikol Paşinyan arasında aparılan danışıqlardan sonra İrəvan bəyanatlar verməyə başladı ki, tərəflər tezliklə sülh müqaviləsinin qalan problemli məqamları ilə bağlı razılığa gələ bilərlər. Bakı susur. Sizcə, həqiqətən də Azərbaycan və Ermənistan qısa müddətdə razılığa gəlib sülh sazişi imzalaya bilərdimi?**

- Yox, çətin ki, orada bununla bağlı razılaşmış olsunlar. Hələlik vəziyyət havadadır. İrəvan hələ də təsdiq prosesini uzatmaq taktikasına sadiqdir. Bu, uzun illər Qarabağ münaqişəsini “həll edən” ATƏT-in Minsk Qrupu kimidir. Ona görə də Ermənistanın eyhamlarına baxmayaraq, indi Bakı ilə İrəvan arasında sülh sazişi gözləmək lazım deyil. Bakı və İrəvanın razılığa gəlmədiyi məqamlar son dərəcə mürəkkəbdir. Və onları bir anda həll etmək mümkün deyil.

- Kazan danışıqlarından sonra belə bir məlumat da ortaya çıxır ki, tərəflər deyəsən delimitasiyanın davam etdirilməsindən danışırlar və birdən-birə Azərbaycan tərəfindən saxlanılan şəxslərin Ermənistana köçürülməsi məsələsi ortaya çıxır. Ermənistan rəsmilərinin bəyanatlarında isə Ermənistanın COP29-da iştirakı üçün İrəvandan Bakıya müəyyən şərtlərin qoyulması mövzusu keçib gedir. Sonra da deyirlər, yox, şərtsiz edəcəyik...

- Çox güman ki, COP29-da Ermənistan nümayəndəsi iştirak edəcək. İqlim gündəmi neytraldır. Bu o deməkdir ki, o, sizi heç nəyə məcbur etmir. Azərbaycan üçün isə Ermənistandan yüksək məmurun iştirakı müsbət amil olardı. Həm də sülh prosesinin fonunda. Düşünürəm ki, Ermənistan reallıqda COP29-da iştirak etmək üçün bazarlıq etməyəcək. Amma İrəvanda bunun əksini söyləmək adi siyasi oyun ola bilər.

**- “Gürcü arzusu”nun Gürcüstandakı parlament seçkilərində qalib gəlməsi Cənubi Qafqazda vəziyyətin inkişafı üçün nə deməkdir?**

- “Gürcü arzusu”nun qələbəsinin yekun möhkəmlənməsi Avropa İttifaqının cavab addımlarına səbəb olacaq. Aİ-nin atacağı ilk addımlardan biri də vizasız girişin ləğvi olacaq. Gürcüstan üçün bu, problem olacaq, çünki Gürcüstan iqtisadiyyatı indi daha çox




buna əsaslanır, həmçinin Rusiyaya səyahət etmək, almaq və satmaq imkanı. Əhalidən isə vizasız gediş-gəlişin ləğvi “Gürcü arzusu”na qarşı sərt reaksiyaya səbəb ola bilər. Gürcüstanda seçkilərlə bağlı vəziyyətin necə bitəcəyini öyrənmək yəqin ki, bir aya yaxın vaxt aparacaq.

Gürcüstanda hələ ki, ciddi etirazların olmaması müxalifətin və Qərbin gözləməsi deməkdir. Və “Gürcü arzusu”nun qələbəsi təsdiqlənərsə, irimiqyaslı mitinqlər başlaya bilər. Qərb “Gürcü arzusu” ilə əməkdaşlıq etməyəcək. Parlamentə daxil olan müxalifət partiyaları artıq mandatlarından imtina ediblər. Əgər “Gürcü arzusu” qalib gəlsə və hökumət qursa, Aİ və ABŞ bunun qeyri-legitim olduğunu bəyan edəcək. Belə bir pis dairə. Və bu pozğun dairə hamını bu və ya digər mövqe tutmağa məcbur edir. Aydınlıq olmayanda yenə də nəyəsə hazırlaşmalı və mövqe tutmalısan. Ona görə də Cənubi Qafqazı sülh, təhlükəsizlik və əməkdaşlıq gözləyir demək hələ ki, doğru deyil.

Və bu vəziyyətdə Ermənistan gözləyir. Yerevan da noyabrın 3-də Moldovada keçiriləcək prezident seçkilərinin ikinci turunu gözləyir. Bundan əlavə, Kişinyov artıq ölkənin Aİ-yə daxil olması ilə bağlı referendum keçirib. Mayi Sandu qalib gəlsə, bu qərbyönlü kurs daha da güclənəcək. Sonra İrəvanda deyəcəklər: bizdə də belə bir referendum keçirmək lazımdır. Üstəlik, Ermənistanda bunun üçün zəmin hazırlanır: belə bir referendumun keçirilməsi məsələsinə baxılması üçün 60 min imza toplanıb.

ABŞ-da noyabrın 5-də keçiriləcək prezident seçkilərinin nəticələri Cənubi Qafqaza daha az təsir edəcək. Kimin qalib gəlməsindən asılı olmayaraq, Ermənistanın “avropalaşması” vektoru artıq götürülüb.

Avropa İttifaqı və xüsusən də Fransa Ermənistanda əsas rol oynayır. Və Ermənistan Respublikasında vəziyyətin inkişafının bir variantı çoxdan seçilib, onun Avropa İttifaqına doğru necəsə hərəkət etməsi lazımdır. Və bu proses ABŞ-da kimin hakimiyyətdə olmasından asılı olmayaraq həyata keçiriləcək. Bu, Aİ ilə yumşaq yaxınlaşma prosesi olacaq. Bu, getdikcə daha dərindən işlənəcək. Qərb isə Cənubi Qafqaza sərt şəkildə yox, addım-addım yumşaq şəkildə girməyə çalışacaq. Vəziyyəti sarsıtmaq, müəyyən ziddiyyətləri saxlamaq, onların üzərində oynamaq.

**- Gürcüstan ətrafında yaranmış vəziyyətlə bağlı Qərb Ermənistanı Rusiyadan daha sürətlə uzaqlaşdırmaq üçün addımlar atacaqmı? İrəvan tezliklə KTMT-ni tərk edə bilərmi?**

- Macarıstan Aİ sədri olduğu halda, yox. Lakin Polşa Avropa İttifaqının növbəti prezidenti olacaq. Bundan əlavə, Kaja Kallas Avropa diplomatiyasının rəhbəri olacaq. Bu, çox sərt qadındır, o cümlədən postsovet məkanı məsələlərində. Məhz bu müddət ərzində Ermənistanın KTMT-dən çıxacağı görünür. Və Rusiya və Azərbaycana daha da sərt təzyiq göstərəcəklər.

***Tərcümə - Elçin Bayramlı***

# Qubada gənclər üçün “Şəxsi inkişaf festivalı” təşkil olunub



Gənclərin İnkişaf və Karyera Mərkəzinin Quba-Xaçmaz regional nümayəndəliyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının birgə təşkilatçılığı ilə Quba, o cümlədən Qubada təhsil alan gənclər üçün “Şəxsi inkişaf festivalı” təşkil olunub. Festival Azərbaycan Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əbədi xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Açılış niqtini ADPU-nun Quba filialının direktoru, dosent



Yusif Alıyev və GİKM-in Quba-Xaçmaz regional nümayəndəliyinin koordinatoru Eyvaz Xeyrullayev səsləndirib. “Gənclərin şəxsi inkişafına dəstək” mövzusunu əhatə edən festivalda 4 spiker fərqli aspektlərdən çıxış edərək gənclərə şəxsi inkişaf və karyera quruculuğunda incə bacarıqların (komanda işi, ünsiyyət, liderlik və s. bacarıqlar), o cümlədən yerli və beynəlxalq arenada könüllü və təcrübə proqramlarına müraciət etməyin əhəmiyyətini bildirib.

İlk spiker: ADPU-nun Quba filialının tələbə, məzunlarla iş və karyera şöbəsinin müdiri Hikmət Musayev – “VİSA Nədir” – Şəxsi inkişafda dəyər, bacarıq və istedadların rolu”, ikinci spiker: Təlimçi, Bakı Dövlət Universitetinin karyera məsləhətçisi Мələkxanım Qurbanova – “Gələcəyə bir bilet” – İnkişaf xəritənə uyğun hərəkətə keç”, üçüncü spiker: ADPU-nun Quba filialının ümumi fənlər kafedrasını baş müəllimi, keyfiyyətin təminatı şöbəsinin müdiri Pərvanə Rzayeva – “Öyrənmə metodları” – Gəncləri müasir öyrənmə metodları haqqında məlumatlandırmaq” və dördüncü spiker təlimçi, karyera məsləhətçisi, Quba regional “ASAN xidmət” mərkəzinin baş mütəxəssisi Vəfa Rüstəmova – “Şəxsi inkişafa ilk addımlar” – Tələbəlik illərinin səmərli və faydalı keçirilməsi” mövzularında çıxış ediblər. Sonda spikerlər tərəfindən gəncləri maraqlandıran suallar cavablandırılıb.

# Dağıdıcı müxalifətin “siyasi məhbus” şousu bitir

***Noyabrın 11-dən 22-nə qədər ölkəmizdə keçiriləcək yüksək səviyyəli qlobal iqlim konfransı ərəfəsində bəzi yerli və xarici qüvvələr bütün resurslarını və imkanlarını Azərbaycana qarşı qarayaxma kampaniyası aparmağa səfərbər ediblər.***





İstər dağıdıcı müxalifətin, istərsə də xaricdəki antimilli qüvvələrin eyni tezisləri ifadə etmələri və səsləndirmələri ölkəmizə yönələn şər və böhtanların vahid mərkəzdən idarə edildiyini göstərir. İddialar isə absurddur. Guya Azərbaycanda insan hüquqları pozulur, siyasi mənsubiyyətinə görə həbslər aparılır, mediaya qarşı təzyiqlər olması barədə də var, vətəndaş cəmiyyəti institutları normal fəaliyyət göstərmir. Hətta Qarabağda kütləvi insan qətlləri həyata keçirmiş, terrorçu dəstə başçılarının həbsdən azad edilməsini də tələb olaraq irəli sürürlər.

AŞPA, Avropa Parlamenti kimi erməni lobbisinin təsiri altında olan qərəzli təşkilatlar COP29 konfransında Azərbaycana müəyyən məsələlərdə dəstək göstərməkdənsə, əks mövqe sərgiləyir, qərəzli iddialarla, şər və böhtanlarla ölkəmizin beynəlxalq aləmdə qazandığı yüksək imicinə kölgə salmağa çalışırlar. Cari ilin yanvar ayında Almaniya, Niderland və Fransanın siyasi dairələrinin sifarişi və göstərişi ilə AŞPA Azərbaycanı qurumda səsvermə hüququnun məhdudlaşdırılması barədə anormal qətnamə qəbul etdi. Haqlı olaraq da Azərbaycan sonrakı proseslərdə quruma qarşı adekvat adım atdı. Yeni AŞPA üzvlərinin Azərbaycana girişinə qadağa qoyuldu. 30 il AŞPA Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib, yalnız ara-sıra heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına və ya iqtisadi sanksiyaların tətbiq olunması tələbi ilə çıxış edə bilərdi. Qanunu tələbləri icra etməyibsə, deməli, qurum öz əsasnamədən gələn müddəalarını və beynəlxalq hüquq normalarını kobud şəkildə pozub.

## “Siyasi məhbus” kimlərdir?

Sübuta yetirilir ki, istər daxildəki məxluqlar, istərsə də xaricdəki ermənipərəst dairələr Azərbaycana qarşı daha çox “siyasi məhbus” termini ilə öz ağılları ilə təzyiq etməyi düşünürlər. Bir-birini təkzib edən, bir-birinin ziddinə olan siyahılardan görünür ki, oğurluq edən, cibgirliklə məşğul olan, avto xuliqanlıq edən, cəmiyyətə hörmətsizlik göstərən, qaçaqmalçılıqla məşğul olan, vergi cinayətləri törədən və digər əməllərə görə həbs olunanları dağıdıcı müxalifət “siyasi məhbus” olaraq təqdim edir və xarici ağalarından da hesabatlarına təqdim etdikləri siyahılarının əlavə edilməsini istəyirlər. Dağıdıcı müxalifət üçün “siyahı”lara kimlərin adlarını əlavə etmək problem deyil, hətta keçmişi cani, qaniçən, terrorçu, insan qatili olsa belə, onların pul qarşılığında adları siyahılara salına bilər. Bu baxımdan ortada qeyr-ciddi siyahılar mövcuddur. Siyahı alverində AXCP sədri Əli Kərimlinin daha fəal olduğu görünür. Çünki onun irəli sürdüyü siyahıda adlar fərqli olmaqla yanaşı, həm də “zəngin”dir. Ə. Kərimlinin iddiasına görə, Ələsgər Məmmədli, Müşfiq Cabbarov, Anar Məmmədov, İbrahim Hümbətov, Hafiz Babalı, Taleh Bağırzadə, Nazim Məmmədov (Baydəmirli), Akif Qurbanov və bu kimi digər konkret cinayət əməli törətdiklərinə görə, həbs olunan şəxslər “siyasi məhbus” hesab olunurlar. Halbuki, sözügedən şəxslərin əksəriyyəti istintaqda özlərini təqsirli bildiklərini etiraf edib və fəaliyyətlərində hər hansı siyasi əməl olmadığını qeyd ediblər.

## Qanunvericiliyə görə, bir neçə dəfə cinayət törədən şəxs artıq cəmiyyət üçün təhlükə mənbəyi hesab olunur

Faktlara istinad etməklə demək olar ki, cinayət törətməyə öyrəncəli olan A.Məmmədli haqqında 29 oktyabr 2013-cü il tarixdə AR CM-nin 192.2.2, 192.2.3, 213.2.1, 308.2-ci maddələri ilə cinayət işi açılıb. 2013-cü ildə keçirilən prezident seçkilərini nüfuzdan salmaq məqsədilə ABŞ-ın Milli Demokratiya İnstitutundan qanunsuz yolla aldığı 276 min ABŞ dolları maliyyə vəsaiti üzrə saxta əməliyyatlar həyata keçirməsi səbəbindən haqqında cinayət işi qaldırılıb və o, 5 il 6 ay azadlıqdan məhrum olunub. Ancaq ölkə Prezidentinin 17.03.2016-cı il tarixli əfv sərəncamı ilə həbsdən azad edilib. A.Məmmədli göstərilən humanistliyi dəyərləndirib, normal fəaliyyətini qurmaq əvəzinə cinayət fəaliyyətini davam etdirib. Ümumiyyətlə A.Məmmədlinin rəhbərlik etdiyi “Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi” 2001-ci ildən bu günədək ölkəmizdə keçirilən bütün seçkilərin müşahidəsini aparıb və bu seçkilərin beynəlxalq standartlara cavab verməməsi barədə qərəzli hesabatlar hazırlayaraq xarici donorlara və beynəlxalq təşkilatlara ötürüb.SMDTM-in fəaliyyəti ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Milli Demokratiya İnstitut (NDİ), Demokratiyaya Milli Dəstək fondu (NED), ”German Marşal” fondu və ABŞ səfirliyinin dəstəyi ilə həyata keçirilib. Bütün seçkilərin qeyri-demokratik mühitdə keçirilməsi barədə qərəzli hesabatlar hazırlanaraq beynəlxalq təşkilatlara təqdim edib. Sübuta yetirilib ki, SMDTM-in fəaliyyəti ABŞ-nin ”Beynəlxalq İnkişaf Agentliyi” (USAİD), “German Marşal Fondu”, “Freedom House”, “National Endowment for Democracy” (NED), “National Democratic İnstitute” (NDİ), Çexiyanın “Prague Civil Society Center” təşkilatları tərəfindən maliyyələşdirilib. 07 fevral Prezident seçkiləri ilə bağlı Anar Məmmədli təxribat xarakterli hesabatın hazırlanmasına xidmət edəcək müşahidəçilər toplamaq üçün böyük canfəşanlıq göstərsə də yalnız, cəmi 50-60 müşahidəçi toplaya bilib. Bu da insanların onu təxribatçı kimi tanıdıqlarını və çirkin məqsədinin nədən ibarət olduğunu tam şəkildə anlamalarından irəli gəlir. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu məxluq xarici donorlardan külli miqdarda pul alsa da, müşahidəçilərə 40-50 manat pul verib. Heç şübhəsiz ki, aldığı qrantlardan müəyyən qədər Ə.Kərimliyə də ötürüb. Qarşılığında A.Məmmədlinin təşkil etdiyi təxribatçılardan ibarət müşahidəçilərinin az qala 80 faizini AXCP Gənclər Komitəsinin üzvləri təşkil edirlər. Belə bir şəxsi “siyasi məhbus” olaraq təqdim etmək rüsvayçılıqdır və hüquqa, qanunlara qarşı hörmətsizlikdir. Ə.Kərimlinin, C.Həsənlinin, G.Hacıbəylinin “siyasi məhbus” kimi təqdim etməyə çalışdıqları, hədə-qorxu ilə pul tələb etməkdə ittiham olunan N.Məmmədov (Baydəmirli) da “siyasi məhbus” olmadığını bildirib.

Bir sözlə, görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət və xaricdəki anti-Azərbaycan qüvvələr həbs olunan şəxslərin fikrini nəzərə almadan belə onların adlarını hazırladıqları qondarma “siyasi məhbus” siyahısına daxil edirlər. Bu isə onu deməyə əsas verir ki, dağıdıcı müxalifət “siyasi məhbus” siyahısının genişləndirməklə daha çox qrant almağa ümid edirlər. Lakin siyahının saxta olduğu üzə çıxınca, bir daha özlərini rüsvay etmiş olurlar.

**İLHAM ƏLİYEV**

# Paytaxt Bakı qışa hazırdımı?

***Payız mövsümü başlayıb, hava artıq soyuyub. Havanın soyuması qurumların qışa hazırlığını gündəmə gətirir. Bu il Azərbaycanda qış ötən illərlə müqayisədə sərt keçəcək. Sinoptik-meteoroloqlar belə hesab edirlər. Onların sözlərinə görə, cari ildə payız mövsümü kimi qışın da sərt keçəcəyi gözlənilir. Oktyabrdan etibarən Azərbaycanda temperaturun kəskin düşməsi və bir sıra ərazilərdə yağış və qarın yağması ilə müşahidə edildi. Bəs görəsən paytaxt Bakımız qışa hazırdırmı?***



Qışa hazırlıqla bağlı Birbaşa SOCAR-ın ”Azəriqaz” İB-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi



Eldəniz Vəliyev və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti SİA-ya açıqlama verib.

Birbaşa SOCAR-ın ”Azəriqaz” İB-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev: ””Azəriqaz” İstehsalat Birliyi hər ilin may ayının 1-dən oktyabrın sonuna qədər payız-qış aylarına hazırlıq prosesi icra edir. Bu proses çərçivəsində birlik əməkdaşları yeraltı xətlərin yerüstü dayaqlar üzərində qaldırılması, korruziyaya uğramış boru xətlərinin yeniləri ilə əvəz olunması, boyalanma işləri, şkaf və siyirtmələrin sazlığının, avadanlıqların işlək vəziyyətdə olub-olmamasının yoxlanışı, eyni zamanda payız-qış mövsümü çərçivəsində yeni xətlərin həmin çərçivədə ana xətlərə birləşdirilməsi prosesini icra edir ki, qış aylarında buna görə dayanmalar olmasın. Onsuz da, bu





proseslərin icrası üçün lokal dayanmalar olur. Çünki bu dayanmalar qaçılmazdır. Bu proses çərçivəsində yeni çəkilən qaz xətlərinin əsas ana xətlərə qoşulması prosesi də icra olunur ki, qış aylarında bu prosesə görə də əlavə hansısa lokal dayanmalara getmirik.

”Azəriqaz” İstehsalat Birliyi olaraq artıq yanvar ayının 1-dən icra olunmağa başlayıb. Yanvarın 1-dən noyabrın əvvəlinə qədər texniki müayinələr də icra edirik ki, qış aylarında mavi yanacağa ehtiyacın daha çox olduğu aylarda hansısa neqativ hallar baş verməsin. Bu müayinələr hansı sa səbəblərdən baş verə biləcək hadisələrin əsaslı şəkildə azalmasına xidmət edir. Bu da qış mövsümünə bir növ hazırlıq kimi dəyərləndirilə bilər”.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti: ”İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti hal-hazırda qış aylarında su təchizatı sistemində yarana biləcək problemlərin aradan qaldırılması istiqamətində fəaliyyətini davam etdirməkdədir. Əsasən kanalizasiya kollektorlarının yuyulması, baxış quyuları və yağış barmaqlıqlarının təmizlənməsi işləri həyata keçirilir. Buna səbəb xəttlər intensiv yağışlar zamanı həm yağış sularını həm də tullantı sularını maneəsiz şəkildə daşıya bilsin. Eyni zamanda kanalizasiya nasos stansiyaları təftiş olunur orada mövcud olan digər mexaniki avadanlıqlar saz vəziyyətə gətirilir.

Bundan başqa qış aylarında ən çox problemlər sayğaclar və magistral paylayıcı şəbəkələrdə baş verən don vurmalardır. Belə ki, vətəndaşlar tərəfindən primitiv qaydada çəkilmiş su xəttlərinin əksəriyyətində izolyasiya məsələləri nəzərə alınmamışdır. Tövsiyəmiz odur ki, həmin xəttlər ya izolyasiya olunmalı ya da torpaq altına keçirilməlidir.

İstehlakçıların diqqətinə çatdırırıq ki, fərdi yaşayış evlərində və fərdi həyətyanı sahələrdə, eləcə də kommersiya obyektlərində quraşdırılmış sayğacların şaxtalı günlərdə don vurma nəticəsində sıradan çıxmasının qarşısının alınması üçün zəruri və qabaqlayıcı tədbirlərin görülməsi vacibdir. Şaxtanın daha çox olduğu gecə saatlarında sayğac içərisində suyun qalmaması üçün sayğacın giriş vintili bağlanmalı, çıxış vintili açıq saxlanılmalı və sayğac qutusunun qapağı bağlı qalmalıdır. Don vurmadan mühafizə tədbirləri kimi sayğacların üzərində isti materiallarında örtük və sayğacın quru ağac yonqaları ilə əhatə olunması tövsiyə olunur”.

**Söylü Ağazadə**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Okeandan gələn təhlükə: sunami

*2025-ci ildə Birləşmiş Millətlər Təşkilatı, Yaponiya tərəfindən təqdim olunan 5 noyabr tarixinin "Ümumdünya Sunami Günü" elan olunması barədə qətnamə qəbul edib. Həmin il dekabrın 4-də BMT Baş Məclisinin İkinci Komitəsi həmin qətnamənin təsdiq edilməsi ilə bağlı səs verib. Qətnamənin məqsədi bütün dünyada seysmik fəallıq nəticəsində yaranan nəhəng dəniz dalğalarının yaratdığı təhlükənin dərk olunmasına yardım göstərməkdir.*





Sunami sözü yapon dilində nəhəng liman dalğası mənasını verir. O, tarix boyu dəhşətli fəsadlar törədən təbii fəlakət olub. Sunami zəlzələ, vulkan püskürmələri və çökmələr, yer sürüşmələri kimi tektonik hadisələr nəticəsində dənizə ötürülən enerji sayəsində yaranan və uzun müddət davam edən nəhəng dəniz dalğasıdır. 1896-cı ildə Yaponiyada 21.000 insanın ölümünə səbəb olan Böyük Melji Sunamisindən sonra dünyaya yapon dilindən yayılan bu kəlmə fəlakət sözünün sinonimidir.

Sunamilər daha çox Sakit Okeanda yayılır, digər okean və dənizlərdə isə nadir rastlanır. Sunami insan boyundan yüksəkdir və dalğa uzunluğu yüzlərlə kilometrdir. Sunaminin digər dalğalardan fərqi ondan ibarətdir ki, o, su hissəciklərinin sürüşməsi nəticəsində hərəkət edir. Sunamidən fərqli olaraq, qapalı hövzələrdə, körfəzlərdə, göllərdə, küləkdə və ya zəlzələlərdə meydana gələn kiçik dalğalara adi dalğalanma deyilir.

Sunamilər formalaşma zamanı 3 mərhələdən keçir. Yaranma mərhələsi - zəlzələ okean dibində yer qabığının qırılması ilə baş verir. Nəticədə okean və ya dəniz suyunun tarazlığı pozulur və su kütləsi qarışır. Yayılma mərhələsi - yaranan dalğalar açıq dənizlərdən sahillərə sürətlə yayılır. Sel mərhələsi -torpaqlar, sahilyanı yaşayış məntəqələri, obyektlər və limanlar su altında qalır.

Birləşmiş Millətlər Təşkilatının (BMT) 2020-ci ildə "Ümumdünya Sunami Məlumatlandırma Günü" çərçivəsində dərc etdiyi hesabata görə, sunami, 2030-cu ilədək dünya əhalisinin 50 faizini təhlükə altına alacaq ölçülərə çatacaq. Hesabatda qeyd olunub ki, düzgün siyasət və tədbirlərin əvvəlcədən həyata keçirilməsi mümkün fəlakətin qarşısını almağa kömək edə bilər.

Sunamini ən təhlükəli təbii fəlakətlər sırasına daxil edən BMT xəbərdarlıq edir ki, sunami təhlükəsi olan ərazilərdə urbanizasiya və turizmin qarşısı alınmalıdır, əks halda bir çox insan risk altında ola bilər. Şri-Lanka, Hindistan, İndoneziya, Tailand və Yaponiya sunamidən ən çox zərər çəkən ölkələr sırasındadır.

Rixter şkalası üzrə ən azı 6,5 gücündə olan sualtı zəlzələlər sunami yarada bilər. Zəlzələlərdən başqa, torpaq sürüşmələri, vulkan püskürmələri, sualtı sürüşmələr və sahilyanı qayaların uçması da sunamilərə səbəb ola bilər. BMT və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, son 100 ildə 60-a yaxın sunami nəticəsində 260 mindən çox insan həyatını itirib. Yer üzündə baş verən bütün sunamilərin 80 faizi Sakit Okeanın payına düşür.



Sunamilərin ən çox olduğu ölkələr Hindistan, İndoneziya, Maldiv adaları, Myanma, Şri-Lanka, Tailand və Yaponiyadır. Yaponiya sunamilərin ən uzun tarixinə malik olsa da, 2004-cü ildə Hind Okeanında baş verən zəlzələ və sunami hadisəsinin səbəb olduğu böyük dağıntılar onu müasir dövrdə ən dağıdıcı sunami hesab edir. Zəlzələ və onun nəticəsində baş vermiş sunami cənub-şərqi Asiyaya və xüsusilə, İndoneziya, Maldiv adaları, Myanma, Malayziya, Tayland və digər ölkələrə ciddi zərər vurdu. Sunami nəticəsində, təxminən, 225-300 minə qədər insan həlak oldu. Həlak olanların dəqiq sayı məlum deyil, çünki cəsədlərin bir hissəsi okean sularına qərq oldu.

26 dekabr, 2004-cü ildə İndoneziyanın Sumatra sahillərində 9,1 bal gücündə zəlzələdən sonra sunami fəlakəti baş verdi. 30 kilometr dərinlikdə meydana gəldiyi təxmin edilən zəlzələdən sonra yaranan 50 metr hündürlüyündəki dalğalar 5 kilometr məsafəni qət edərək Sumatra əyalətinin Meubolah bölgəsinə qədər gedib çıxdı. Hadisədə təxminən 230 min adam həyatını itirdi.

2011-ci il martın 11-də Yaponiyanın Sakit okeanın şimal sahillərində baş verən sunami 18 mindən çox insanın ölümünə səbəb oldu. Yaponiyanın şərq sahillərində 10 metr hündürlüyündə dalğalar 452 min insanın müvəqqəti sığınacaqlara köçməsinə səbəb olub. 1 noyabr, 1755-ci ildə Portuqaliyanın paytaxtı Lissabonda baş verən 8,5 bal gücündə zəlzələdən sonra meydana gələn 30 metr hündürlüyündəki dalğalar Portuqaliyanın qərb sahillərində və İspaniyanın cənubunda, eləcə də Mərakeşdə bir çox şəhərə ciddi təsir göstərdi. Zəlzələ və sunamidən sonra Portuqaliya, Mərakeş və İspaniyada təxminən 6 min insan həlak olub.

27 avqust 1883-cü ildə İndoneziyada Krakatau Kaldera vulkanının püskürməsi nəticəsində yaranan sunami Anjer və Merak şəhərlərini dağıdıb. Ümumilikdə 40 minə yaxın insanın, sunami nəticəsində 38 mini və vulkan partlayışı nəticəsində 2 minə yaxın insanın həyatını itirdiyi açıqlandı. 20 sentyabr, 1498-ci ildə Yaponiyada baş verən 8,3 bal gücündə zəlzələnin yaratdığı sunami Kii, Mikava, Suruqu, İzu və Saqami sahillərinə təsir etdi və 31 min insan həlak oldu.

1707-ci ildə, oktyabrın 28-də Yaponiyanın Nankaydo şəhərində baş verən 8,4 bal gücündə zəlzələ Kyushyu, Şikoku və Honşin sahillərində 25 metrlik sunamiyə səbəb oldu, təxminən 30 min insanın həyatını itirdiyi tarixi qaynaqlarda qeyd olunub. 15 iyun, 1896-cı ildə Yaponiyanın Sanriku bölgəsində 7,6 bal gücündə olduğu təxmin edilən zəlzələ və onun ardınca baş verən sunami 22 min nəfərin ölümünə səbəb olub. 38 metr yüksələn dalğaların Çinin şərq sahillərinə də təsir etdiyi və orada da 4 min insanın ölümünə səbəb olduğu bildirilir.

13 avqust, 1868-ci ildə Çilinin şimalında baş verən 8,5 bal gücündə zəlzələdən sonra meydana gələn və dalğa uzunluğunun 21 metr olduğu təxmin edilən sunaminin 3 gün davam etdiyini və təxminən 25 min insanın ölümünə səbəb olduğu barədə tarixi qaynaqlarda məlumat var. Həmçinin, tarixi qaynaqlarda 1771-ci il, aprelin 24-də Yaponiyanın Ryukyu adalarında baş verən 7,4 bal gücündə zəlzələnin bölgədəki bir çox adaya təsir etdiyi, 85 metr hündürlüyündəki dalğaların isə ən böyük ziyanı İşigaki adasına verdiyi bildirilir. Bu fəlakətdə təxminən 12 min insanın öldüyü bildirilir.

Dəniz sahilində hiss olunan zəlzələdən sonra sunami ehtimalı həmişə var. Sunaminin ilk təsiri dəniz suyunun yavaş-yavaş, təqribən bir metr qalxması və çəkməsi ilə özünü göstərir. Bu dalğa sonrakıların xəbərçisidir. Dağıdıcı dalğalardan əvvəl okeandan və ya dənizdən ildırım və ya təyyarə səsini xatırladan uğultu səsi eşidilə bilər. Bu vəziyyətdə dərhal sahildən uzaqlaşmaq lazımdır. Gəmidə səfərdə olanlar sahildən uzaq, açıq dənizə gedərək dalğaların təsirindən xilas ola bilirlər. Quruda olanlar da dənizdən uzaqlaşmalıdır. Sunami daha çox sahil həvəskarlarına zərər vurur. Çünki sunami təhlükəsini hiss edən insanlar sunamini seyr etmək, lentə almaq istədikləri üçün sahilə yaxın dayanırlar və bu da çox vaxt həyatları bahasına başa gəlir.

***Lalə Mehralı***

SƏS
5 noyabr
2024-cü il

# “Heç kimi zorla nikahda qalmağa məcbur etmək olmaz”



***“Ailə Məcəlləsinin 2-ci maddəsinə əsasən ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü prinsipinə uyğun həyata keçirilir".***



MÜNASİBƏT

Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. O bildirib ki, nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır: ”Yəni göründüyü kimi nikah ər-arvadın könüllü razılığı əsasında qeydə alındığı üçün heç kimi zorla nikahda qalmağa məcbur etmək olmaz. Hətta nikah tərəflərdən birinin könüllü razılığı olmadan, yəni məcburiyyət, aldatma, yanılma nəticəsində bağlanarsa — nikah bağlanarkən hüquqları pozulmuş ər (arvad) nikahın etibarsız sayılmasını tələb etmək hüququna malikdirlər.

Ailə Məcəlləsinin 20-ci maddəsinə əsasən, tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasında təkid etdikdə nikah pozulur. Yəni tərəflərdən biri boşanmaqda israrlıdırsa, məhkəmə tərəfləri zorla nikahda saxlaya bilməz.

Azərbaycan Respublikası 176-1.1-ci maddəsinə əsasən, qadını nikaha daxil olmağa məcbur etmə -iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə - üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

***Söylü Ağazadə***

# Bakıda dəhşətli qətl: Anasının boynunu sındıraraq öldürdü

***Bakıda dəhşətli cinayət törədilib. SİA xəbər verir ki, hadisə noyabrın 3-ü saat 23 radələrində Şüvəlanda qeydə alınıb.***

Yardımlı rayon sakinləri, 20 yaşlı Sadiq Beybudlu kirayədə yaşadığı Şüvəlan qəsəbəsindəki evdə anası, 40 yaşlı Zəminə Beybudlunun ayağına bıçaqla xəsarət yetirib, sonra boynunu sındıraraq öldürüb. Daha sonra anasının tanışı 39 yaşlı Elvin Allahverdiyevin əlinə taxta parçası ilə xəsarət yetirib. Həmin şəxs saxlanılıb və prokurorluğa təhvil verilib.




# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Daha bir boksçumuz dünya birinciliyində gümüş medal qazanıb




***Azərbaycan boksçusu Əli Abdullayev Monteneqronun Budva şəhərində gənclər arasında keçirilən dünya birinciliyində gümüş medal qazanıb. Belə ki, 63,5 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı finalda Abdulaziz Jurakulovla (Özbəkistan) qarşılaşıb. Görüş üçüncü raundda hakimlərin qərarı ilə dayandırılıb və rəqib qalib elan edilib. Nəticədə Abdullayev mundialı ikinci pillədə bitirib.***

Bununla da Azərbaycan millisi dünya birinciliyini 5 medalla başa vurub. Əlidən öncə Bilalhəbaşi Nəzərov (48 kiloqram) gümüş, Məhəmmədəli Qasımzadə (60 kiloqram), Zidan Hümbətov (51 kiloqram) və Aynur Mikayılova (57 kiloqram) bürünc mükafata sahib çıxıblar.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**